| Livan | 100 Livan funtu | 0,05 | 0,10 | 0,12 | 0,11 | 0,11 | *100 Lebanon pound* | *Lebanon* |
| Misir | 1 Misir funtu | 0,14 | 0,20 | 0,10 | 0,10 | 0,09 | *1 Egypt pound* | *Egypt* |
| Norveç | 1 Norveç kronu | 0,14 | 0,18 | 0,21 | 0,21 | 0,19 | *1 Norvegian krone* | *Norway* |
| Sinqapur | 1 Sinqapur dolları | 0,62 | 1,10 | 1,22 | 1,27 | 1,24 | *1 Singapore dollars* | *Singa-pore* |

## 27.20 Azərbaycan Respublikası Mərkəzi Bankında manatın məzənnəsi
(ilin sonuna; xarici valyutaya düşən manat)
***Exchange rate of manat in the Central Bank of the Republic of Azerbaijan***
*(end of the year; manat as unit of foreign currency)*

...ardı ...*continued*

| | Xarici valyuta | 2010 | 2015 | 2016 | 2017 | 2018 | *Foreign currency* | |
|---|---|---|---|---|---|---|---|---|
| Türkiyə | 1 Türk Lirəsı | 0,51 | 0,54 | 0,50 | 0,45 | 0,32 | *1 Turkish liras* | *Turkey* |
| Belarus | 100 Belarus rublu | 2,66 | 0,84 | 90,5 x x) | 86,1 | 79,0 | *100 Belarus ruble* | *Belarus* |
| Qırğızıstan | 1 Qırğız somu | 0,02 | 0,02 | 0,03 | 0,02 | 0,02 | *1 Kyrgyzstan som* | *Kyr-gyzstan* |
| Qazaxıstan | 100 Qazaxıstan tengesi | 0,54 | 0,46 | 0,53 | 0,51 | 0,45 | *100 Kazak-hstan tenge* | *Kaza-khstan* |
| Estoniya | 1 Eston kronu | 0,07 | - x) | - x) | - x) | - x) | *1 Estonian kroon* | *Estonia* |
| Gürcüstan | 1 Gürcü larisi | 0,45 | 0,65 | 0,67 | 0,65 | 0,64 | *1 Georgia lari* | *Georgia* |
| Latviya | 1 Latviya latı | 1,49 | - x) | - x) | - x) | - x) | *1 Latvian lat* | *Latvia* |
| Litva | 1 Litva liti | 0,31 | - x) | - x) | - x) | - x) | *1 Lithuanian lit* | *Lithuania* |
| Moldova | 1 Moldova leyi | 0,07 | 0,08 | 0,09 | 0,10 | 0,10 | *1 Moldova lei* | *Moldova* |
| Rusiya | 100 Rusiya rublu | 2,63 | 2,16 | 2,93 | 2,95 | 2,45 | *100 Russian ruble* | *Russia* |
| Ukrayna | 1 Ukrayna qrivnası | 0,10 | 0,07 | 0,07 | 0,06 | 0,06 | *1 Ukraine grivne* | *Ukraine* |
| Tacikistan | 1 Tacik samonisi | 0,18 | 0,24 | 0,22 | 0,19 | 0,18 | *1 Tajikistan samoni* | *Tajikictan* |

x) Bu ölkələrdə pul vahidi Avrodur .
*Monetary unit in these countries is EURO.*

x x) Artım denominasiya ilə əlaqədardır.
*Increasing is related with denomination.*

# METODOLOGİYA
# *METHODOLOGY*

# ƏHALİ

Əhali haqqında məlumatların əldə edilməsi üçün ilk mənbə əhalinin siyahıyaalınmalarıdır.

**Əhalinin sayının cari hesablanması** əhalinin son siyahıyaalmasının yekunları əsasında aparılır və hər il bu ərazidə doğulanların və daimi yaşamaq üçün bu əraziyə gələnlərin sayı əhalinin sayına əlavə edilir, ölənlərin və bu ərazidən köçənlərin sayı isə əhalinin sayından çıxılır. Növbəti siyahıyaalmanın yekunlarına əsasən əvvəlki siyahıyaalınmadan sonrakı dövrdə əhalinin sayı və tərkibi üzrə müvafiq dəqiqləşdirmələr aparılır.

Əhali yaşayış yerlərinə görə şəhər və kənd əhalisinə bölünür. Şəhər yerlərinə şəhərlər və qəsəbələr aid edilir, qalan bütün yaşayış məntəqələri isə kənd yerləri sayılır.

**Yaş** – həyatda tamam olmuş yaşların, bir yaşdan kiçik uşaqlar üçün ayların, 1 aylığa qədər uşaqlar üçün isə günlərin sayıdır. Yaş tərkibi haqqında məlumatlar siyahıyaalınmalar zamanı sorğu yolu ilə əldə edilir. Bu məlumatlar ayrı-ayrı yaşlar üzrə X yaşdan X+1 yaşadək əhalinin sayının hərəkəti metoduna uyğun cari hesablamalar yolu ilə müəyyən edilir. Demoqrafik hadisələrin cari qeydiyyatına dair məlumatlar hesablamalar zamanı nəzərə alınır. Təhlilin məqsədindən asılı olaraq müxtəlif yaş qruplarından istifadə olunur.

**Doğulanlar və ölənlər** haqqında məlumatlar Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən tərtib edilən doğum və ölüm haqqında müvafiq akt qeydlərində olan məlumatların hər ay statistik cəhətdən işlənməsi nəticəsində əldə edilir. Doğulanların sayına yalnız diri doğulanların sayı daxil edilir.

**Əhalinin təbii artımı** – təqvim ilində diri doğulanların sayı ilə ölənlərin sayının fərqinə bərabərdir.

**Doğumun ümumi əmsalı** – uşaq doğumunun intensivliyini müəyyən edən göstəricidir. Təqvim ilində diri doğulanların sayının əhalinin orta illik sayına nisbəti ilə ölçülür, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Ölümün ümumi əmsalı** – əhali arasında ölümün intensivliyini müəyyən edən göstəricidir. Təqvim ilində ölənlərin sayının əhalinin orta illik sayına nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Təbii artımın əmsalı** – əhalinin təbii artımı nisbi göstəricilərlə də səciyyələndirilə bilər. Təbii artım əhalinin orta illik sayına bölünərək orta illik əhalinin hər 1000 nəfərinə hesablanır və ya doğumun və ölümün ümumi əmsallarının fərqi ilə müəyyən edilir.

**Körpə ölümünün əmsalı** – bir yaşadək (0 yaşda) körpələrin ölümünü səciyyələndirir. Körpə ölümünün səviyyəsi ölümün ümumi əmsalından fərqli olaraq bir yaşadək körpələrin ölüm hallarının onların orta illik sayına nisbəti kimi deyil, diri doğulanların ümumi sayının hər 1000 nəfərinə nisbəti ilə hesablanır.

**Ölümün səbəbləri** haqqında informasiya mənbəyi ölümə səbəb olmuş xəstəlik, bədbəxt hadisə, qətl, özünəqəsd və digər xarici təsirlərlə əlaqədar olaraq həkim tərəfindən tərtib olunan ölüm haqqında tibbi şəhadətnamələrdəki qeydlərdən ibarətdir.

Ölüm haqqında məlumatların səbəblər üzrə kodlaşdırılması və işlənməsi xəstəliklərin, zədələr və ölümün səbəblərinin X baxılış Beynəlxalq Təsnifatına uyğun aparılır.

**Ölümün səbəblərinə görə ölüm əmsalları** – göstərilən ölüm səbəblərindən il ərzində ölənlərin sayının bu yaşda əhalinin orta illik sayına nisbəti ilə təyin edilir. Ölümün ümumi və yaş əmsallarından fərqli olaraq, əhalinin 100 min nəfərinə, 1 yaşadək körpələr üçün isə 10 min nəfər diri doğulana görə hesablanır.

**Doğulanda gözlənilən ömür uzunluğu (0 yaş üçün)** – doğulanların hər birinin orta hesabla yaşaya biləcəyi illərin sayını göstərir. Burada doğulanların bütün ömrü boyu ölümün səviyyəsinin hər yaş qrupu üzrə göstəricinin hesablandığı ildəki səviyyədə dəyişməz qalacağı şərti qəbul edilir. Doğulanda gözlənilən ömür uzunluğu həyat cədvəllərinin hesablanması nəticəsində alınır.

**Nikah və boşanmalar** haqqında məlumatlar Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən tərtib edilən nikahın bağlanması və pozulması haqqında müvafiq akt qeydlərində olan məlumatların hər ay statistik cəhətdən işlənməsi nəticəsində əldə edilir.

**Nikah** - kişi və qadının bir-birinə və uşaqlara qarşı hüquq və vəzifələrini müəyyənləşdirən münasibət formasıdır. Ər və arvad arasında hüquqi münasibət, onların nikahlarının Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeyd etdirilməsidir.

Əhalinin təbii hərəkətinin cari statistikası yalnız hüquqi cəhətdən qeyd olunmuş nikahları nəzərə alır. Əhalinin siyahıyaalınmasında isə rəsmi qeydə alınıb-alınmamasından asılı olmayaraq, faktiki nikahda olanlar da hesaba alınır.

**Nikahın ümumi əmsalı** – təqvim ilində qeydə alınmış nikahların sayının əhalinin orta illik sayına olan nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Boşanma (nikahın pozulması)** – birlikdə yaşayan ər-arvadın nikahlarının son hüquqi ləğvi tərəflərə təkrar nikaha daxil olmaq hüququ verir. Nikahın pozulma faktı Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələrində qeydiyyata alındıqdan sonra pozulmuş hesab olunur.

**Boşanmanın ümumi əmsalı** – təqvim ilində qeydə alınmış boşanmaların sayının əhalinin orta illik sayına nisbətidir, əhalinin hər 1000 nəfərinə hesablanır.

**Əhalinin milli tərkibi** – əhalinin siyahıyaalınmaları zamanı müəyyənləşdirilir. Sorğu olunan hər bir şəxs milliyyətini özü müəyyən edir.

## *POPULATION*

*Population census is a first source to get information about the population.*

***The current estimation of the population size*** *is carried out based on results of last population census. The number of birth and arrivals are added to population size and number of death and departures is deducted from the size of population. The size of population is precise during period between censuses according to the results of the next population census.*

*Populations by place of residence are divided on urban and rural population. Cities and settlements are referent to urban places other places of residence are rural localities.*

***Age** is a number of completed years: for children under one year old - number of months and for infants under one month –number of days. The data on age are compiled by means of inquiry during the population censuses. This data are defined by means of current estimation according to movement of the population size from the age x to x + 1. The information on current registration of demographic events is taking into account during these estimations.*

*Different age groups are used depending on analysis purposes.*

*The information on **birth** and **death** rates is obtained based on monthly statistical elaboration of birth and death statements compiled by registration Office of the Ministry of Justice. Number of births includes only number of live-births.*

***Natural increase of population** is equal to difference between the number of birth and death.*

***Crude birth rates** is ratio of live birth and death to average annual size of the population. This indicator is calculated per 1000 population.*

***Crude death rates** is ratio of live birth and death to average annual size of the population. This indicator is calculated per 1000 population.*

***Natural increase rate** is characterized by relative indicators. This indicator is defined by means of dividing of natural increase of population by average annual size of population or difference between crude birth and death rates.*

***Infant mortality rate** –characterized by the death of infants under the age of 1 (or 0). The level of infant mortality is not calculated by the ratio of deaths of infants under the age of 1 to their average annual number, but the total number of live births per 1000 person.*

*The source of information on **death causes** consists of medical certificate on death that are issued by doctor in case the death caused by disease, accident, suicide, homicide or other external factors.*

*Coding of death causes and processing of data is implemented according to Death Causes of the International Classification (revised X edition).*

***Death rate by causes** is defined as ratio of death number during the year to average annual population size at the same year. This ratio is estimated per 100 000 population.*

***Life expectancy at birth (for 0 age)** is an average number of years to be lived by person from a cohort of those born in a given year, if he (she) would be subjected in each age to the same mortality level experienced in the year(s) to which this indicator has been computed*

*The data on marriages and divorces is obtained based on annual statistical development of inscriptions of the copies of records compiled by registration office of the Ministry of Justice.*

***Marriage** is the form of relation that determines rights and responsibilities of man and woman to each other and children. The legal relationship between husband and wife is the registration of their marriage at bodies of registration office of the Ministry of Justice.*

*Current vital statistics considers only officially registered marriages, while population census considers actual marriages irrespective of the fact whether their marriage has been registered or not.*

***Crude marriage rate*** *is a ratio of number of officially registered marriage to average annual size of population and it is calculated as per 1,000 population.*

***Divorce (cancellation of marriage)*** *is a final legal cancellation of marital relation between husband and wife and gives them legal rights to be married once more. The marriage is considered as cancelled as soon as the cancellation is registered by registration office of the Ministry of Justice.*

***Crude divorce rate*** *is a ratio of number of officially registered divorces to average annual size of population and it is calculated as per 1,000 population.*

***National composition of the population*** *is defined during population census. It is the right of each person to define own nationality by himself.*

## ƏMƏK EHTİYATLARI VƏ ƏHALİNİN MƏŞĞULLUĞU

**Əmək ehtiyatları** – əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhalinin, ölkə qanunvericiliyi ilə müəyyən olunmuş yaş həddinə uyğun olaraq əmək qabiliyyətli yaşdan yuxarı olan və əmək qabiliyyətli yaş həddinə çatmamış işləyən şəxslərin ümumi sayıdır.

**İqtisadi fəal əhali** – məşğul və işsiz əhalinin ümumi sayıdır.

**Məşğul əhali** - Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan və bir qayda olaraq qazanc (gəlir) gətirən hər hansı fəaliyyətlə məşğul olan Azərbaycan Respublikasının vətəndaşları, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər və əcnəbilərdir.

**Özünüməşğulluq** - müstəqil surətdə özünü işlə təmin edən əmək qabiliyyətli şəxslərdir.

**Əlverişsiz əmək şəraitində çalışan işçilərin sayına** zərərli əmək şəraitində, sanitar-gigiyena normaları ilə müəyyən olunmuş kimyəvi maddə və ya sənaye tozunun müəyyən həddə qədər yol verilən qatılıq dərəcəsini, yaxud elementin müəyyən həddə qədər yol verilən səviyyəsini keçən, heç olmasa bir zərərli istehsalat amili olan iş yerlərində çalışanlar daxil edilirlər. Ağır fiziki əməklə məşğul olanlar, habelə əməyin təhlükəsizliyi standartları sisteminin tələblərinə cavab verməyən maşın, mexanizm və avadanlıqlarda işləyənlər də bu göstəriciyə daxil edilirlər.

**Əlverişsiz əmək şəraitində işə görə güzəşt və kompensasiya alan işçilərin sayına** əlavə məzuniyyət alan, qısaldılmış iş vaxtında işləyən, pulsuz müalicə-profilaktik yemək, süd və başqa ərzaq məhsulları, artırılmış tarif məvacibləri əsasında əməkhaqqı, əlverişsiz əmək şəraitinə və əməyin gərginliyinə görə əlavə ödəmələr və güzəştli şərtlərlə yaşa görə əmək pensiyası almaq hüququ verilən işçilər daxil edilirlər.

**Orta aylıq nominal əməkhaqqı** hesablanmış əməkhaqqı fondunun (vergilər və digər sosial ödəmələr daxil olmaqla) faktiki işləmiş işçilərin sayına (sosial, habelə ödənişsiz məzuniyyət verilmiş işçilər istisna olmaqla) bölünməsi ilə müəyyən edilir.

**Orta aylıq real əməkhaqqı indeksi** orta aylıq nominal əməkhaqqının indeksinin istehlak qiymətlərinin indeksinə bölünməsi yolu ilə müəyyən edilir.

## *LABOUR RESOURCES AND EMPLOYMENT*

***Labour resources*** *consist of the total number of ablebodied population in working age, persons who are work over and under in working age according to age limit as defined in legislation of the country.*

*Economically active population consists of the total number of employed and unemployed persons.*

*Employed persons – citizens of Republic of Azerbaijan, constantly living in Republic of Azerbaijan individuals without citizenship and foreigners who are engaged in any activity not contradicting the legislation of the Republic of Azerbaijan and as a rule bringing them earnings (income).*

***Self-employment*** *– provision of work by ablebodied persons for themselves independently.*

***Number of employees engaged in harmful labour conditions*** *includes employees on working places of which one industrial factor (noise, vibration, dust, gas pollution, and radiation) exceeds admissible concentration of chemical substances, industrial dust admissible level of element determined sanitary-hygienic norms. Persons engaged in heavy manual labour, as well as persons working with machinery, mechanism and equipment that do not meet the labour security standards system are also included in this indicator.*

***Number of employees, which are determined compensations for the work in harmful and dangerous labour conditions*** *includes employees who are determined additional vocation, shortened working time, increased tariffs (rate), additional charge for conditions and labour intensity, right in age retirement pension on preferential terms.*

***Average monthly nominal wages and salaries*** *are defined by dividing the calculated wages and salaries fund (including taxes and other social payments) into actual number of employees (excluding social, as well employees are at unpaid leave).*

***Index of average monthly real wages*** *is determined by division of average monthly nominal wages index into consumer price index.*

## EV TƏSƏRRÜFATLARININ BÜDCƏSİ

**Bu bölmə ev təsərrüfatları büdcələrinin seçmə tədqiqatının əsasında ev təsərrüfatlarının gəlirləri, xərcləri və istehlakı barədə əsas göstəriciləri əhatə edir.**

**Ev təsərrüfatları büdcələrinin seçmə tədqiqatı** əhalinin həyat səviyyəsinin dövlət tərəfindən statistik müşahidə metodudur və “Azəbaycanda statistik işlərin reqlamenti”nə uyğun olaraq dövlət statistika orqanları tərəfindən aparılır.

Ev təsərrüfatları büdcələrinin seçmə tədqiqatı əhalinin müxtəlif qrup və təbəqələrinin həyat səviyyəsi haqqında iqtisadi-statistik məlumatlar almaq üçün keçirilir. Onun məlumatlarından İstehlak Qiymətləri İndeksinin hesablanmasında,

Milli Hesablar Sisteminin aparılmasında, əhalinin həyat səviyyəsində baş verən dəyişikliklərin təhlil edilməsi və əhalinin sosial müdafiəsi üçün tədbirlər sisteminin hazırlanmasında geniş istifadə olunur.

Azərbaycanda ev təsərrüfatları büdcələri tədqiqatının böyük tarixi təcrübəsi var. İlk tədqiqatlar XIX əsrin sonunda və XX əsrin əvvəllərində Bakı neftçilərinin ailələrində aparılmışdır. Hazırda mövcud olan ev təsərrüfatlarının seçmə tədqiqatının metodoloji şəbəkəsi 50-ci illərin əvvəllərində yaradılmışdır. İlk vaxtlar 600-dək ev təsərrüfatlarında, 1969-cu ildən isə 1150 ev təsərrüfatında tədqiqat aparılmışdır. Reprezentativliyi (təmsilliliyi) və məlumatların düzgünlüyünü təmin etmək məqsədilə 1988-ci ildən tədqiq olunan ev təsərrüfatlarının sayı 1625-ə çatdırılmışdır. Ölkəmizdə aparılan iqtisadi islahatlarla bağlı yeni təsərrüfatçılıq formaları yaranmış və bununla bağlı əhalinin yeni sosial-iqtisadi qrupları əmələ gəlmişdir. Əhalinin bu qruplarını tədqiq etmək üçün 2015-ci ilin yanvarından 10200-ə çatdırılmışdır. Tədqiqat ev təsərrüfatı üzvlərinin bilavasitə sorğusu və gündəlik gəlirlər və xərclər barədə qeydlərin aparılması yolu ilə rüblük əsaslarla həyata keçirilir. Sorğu anında qaib təsərrüfat üzvləri istisna olmaqla, ev təsərrüfatının bütün üzvləri sorğuya cəlb olunurlar.

**Ev təsərrüfatlarının gəlirlərinə** – muzdlu əmək fəaliyyətindən gəlirlər (əmək haqqı), pensiyalar, müavinətlər, təqaüdlər və digər sosial transferlər, məhsul istehsalı və satışından əldə olunan gəlirlər, mülkiyyətdən əldə olunan gəlirlər (divident və faiz gəlirləri), sahibkarlıq fəaliyyətindən və özünüməşğulluqdan gəlirlər, ev təsərrüfatı üzvlərinin digər gəlirləri daxildir. Natura şəklində daxil olmuş ərzaq məhsullarının, qeyri-ərzaq mallarının, yardım və güzəştlərin pulla ifadə olunmuş dəyəri də ev təsərrüfatlarının gəlirlərinə daxil edilir.

**Ev təsərrüfatlarının istehlak xərcləri** – ərzaq və qeyri-ərzaq məhsulları, içkilərin alınması, xidmətlərin haqqının ödənilməsinə çəkilən xərcləri əhatə edir. Ev təsərrüfatları tərəfindən vergi, rüsum, borc, aliment, cərimə, kredit ödənişləri və istehlaka aid olmayan sair bu kimi xərclər istehlak xərclərinə aid edilmir.

**Əhalinin adambaşına orta aylıq pul gəlirlərinin ölçüsünə görə bölgüsü -** verilmiş müəyyən intervallar üzrə adambaşına pul gəlirlərinin ölçüsünə görə əhali sayının (xüsusi çəkisinin) əhalinin maddi vəziyyətinin ölçüsünə görə qruplaşmasıdır.

**Ev təsərrüfatlarında ərzaq məhsullarının dəyəri** – ev təsərrüfatlarında istehlak üçün ərzaq məhsullarının alınmasına və evdən kənarda qidalanmaya çəkilən pul xərclərinin, eləcə də natura şəklində daxil olmuş ərzaq məhsullarının dəyərinin məcmusudur.

**Ev təsərrüfatlarının sərəncamda qalan gəlirləri** – ev təsərrüfatında xərcləri təmin etmək və əmanətlər yaratmaq üçün pul vəsaitlərinin, eləcə də natura şəklində daxil olmuş ərzaq məhsullarının, yardım və güzəştlərin dəyərinin cəmindən ibarətdir.

**Kvintil (20%) qrupları** üzrə göstəricilər hesablanarkən bütün ev təsərrüfatları adambaşına sərəncamda qalan gəlirlər göstəricisinə görə ən kiçikdən ən böyük gəlirədək artan qaydada sıralanır və ev təsərrüfatlarının sayına görə 20%-lik 5 bərabər qrup yaradılır. Bu zaman birinci kvintilə ən az gəlirləri olanlar, beşinci kvintilə isə ən çox gəlirləri olan ev təsərrüfatları düşür. **Desil (10%) qrupları** üzrə eyni qayda ilə məlumatlar qruplaşdırılaraq 10 bərabər hissəyə bölünür. Təhlil və müqayisə üçün eyni göstəricilər istehlak xərclərinə görə də hesablanır.

## *BUDGET OF HOUSEHOLDS*

***This section comprises indicators on income, expenditure and consumption of households on the basis of the results of a sample survey of households.***

***A sample survey of households' income and expenditure*** *is a method of statistical observation of the living standards of the population and is carried out by bodies of state statistics in accordance with the "Rules of statistical work in Azerbaijan". The survey is carried out to obtain economic and social information on the living-standards of different strata and groups of the population. This information is widely used for the calculation of Consumer Price Indices, for the National Accounts, and for analyzing changes in the living standards of the population and the preparation of Social protection policies.*

*There is a big historical experience conducting households' budget surveys in Azerbaijan. The first one was carried out at the end of the XIXth century and the beginning of the XXth century among families of Baku oil workers. The methodological network of the current sample survey of households was set up in the beginning of the 1950ies. The survey was initially carried out among 600 households and since 1969 in 1150 households. To achieve better representativity the number of households was enlarged to 1625 in 1988. As a result of economic reforms being carried out in the country new socio-economic groups have emerged. In order to survey these groups of the population a new survey form was introduced in January 2015 it approached to 10200. The survey is carried out by questioning the members of households and by asking them to keep record of their daily income and expenditure. The survey is realized on the voluntary participation of household memebers on quarterly basis. Except the absent member the whole household members are participated in the survey.*

***Money income of households*** *includes hired labor activity, pensions, allowances, benefits, and other social transfers, income from produce and sale of agricultural products, income from property (dividend and interest incomes), income received from ownership and self-employed, other income of family members. The value of food products non-food product and the money statement of assistance and discounts are included in households income.*

***Consumption expenditures of households*** *cover the expenditures for food, alcoholic drinks and services. Consumption expenditures do not include paying taxes by households, payments related to debts, financial assistance to relatives, fines, credit refunds and others.*

***Distribution of population per capita by average monthly income -*** *is the grouping of the population (the specific weight) of the population according to the size of the per capita income for certain intervals and the size of the population's financial status.*

***Cost of food products in households -*** *Food product value in households includes purchasing of food for consumption in the household and expenses for food outside the house, as well as the value of food products received in the natural forms.*

***Disposable income of households -*** *the sum of the value of money, as well as the food products, benefits and discounts that are in the form of cash to provide household spending and savings.*

*Indicators of household income are broken down by 20% groups (quintiles).*

*While calculating indicators 5 equal size groups are creating, each representing 20% of households are lined up from the descenting order from fewest to the largest ascending order by the income indicators. The households with the lowest incomes represent the first quintile and the household with the highest incomes the fifth quintile. Similarly, 10% groups (deciles) have been created.*

## ƏHALİNİN MƏNZİL ŞƏRAİTİ

**Mənzil** – bir və ya bir neçə otaqdan, habelə yaşama ilə əlaqədar məişət və digər ehtiyacların ödənilməsi üçün nəzərdə tutulmuş yardımçı sahələrdən ibarət, çoxmənzilli binanın ümumi istifadəsində olan sahələrinə birbaşa daxil olmaq imkanını təmin edən strukturca ayrıca sahədir.

**Mənzil fondu** – Azərbaycan Respublikasının ərazisində yerləşən bütün yaşayış sahələrinin məcmusudur. Mülkiyyət formasına görə mənzil fonduna xüsusi mənzil fondu, dövlət mənzil fondu və bələdiyyə mənzil fondu daxildir.

**Mənzil fondunun abadlığı** - abadlıq növlərinin bütün kompleksi ilə, yəni su kəməri ilə, qazla, kanalizasiya ilə, mərkəzi istilik sistemi ilə, isti su təminatı ilə təchiz olunmuş, yaşayış sahəsinin kəmiyyəti ilə ölçülən mənzil fondunun keyfiyyətidir.

**Mənzil şəraitinin yaxşılaşdırılması** - mənzil almış və mənzil şəraitinin yaxşılaşdırmış növbədə olan və olmayan ailələrin sayı, həm cəmi, həm də ayrı-ayrı güzəştli kateqoriyalar üzrə aparılır.

**Mənzillərin özəlləşdirilməsi** – könüllülük əsasında vətəndaşlara pulsuz verilmiş yaşadıqları mənzillər; növbədə olanlara və digər şəxslərə auksionlarla satılmış yeni tikilmiş məskunlaşmamış mənzillər, əsaslı tikintiyə və ya bərpaya ehtiyacı olan əhaliyə satılmış binalardakı mənzillər.

## *HOUSING CONDITIONS OF THE POPULATION*

***Dwelling*** *– is the separate space on structure composing of one or more rooms, as well as additional spaces intended for satisfaction of other needs and providing directly entrance to the space in common use of multistory building.*

***Housing fund*** *- comprise all living spaces located in the territory of the Republic of Azerbaijan. Dwelling fund by property form includes private dwellings fund, state dwelling fund and municipal housing fund.*

***Improvements*** *of housing fund - is the quality of measured by coefficient of living space provided alongside with the all kings of improvement i.e. piped water, gas, sewage, central heating system, hot water.*

***Improvement of housing conditions*** *- is carried out on separate and privileged categories of families on shift and without shift who have purchased and improved condition of dwelling.*

***Privatization of dwellings:*** *dwellings given to citizens free of charge, newly constructed unoccupied dwellings given to persons for temporary use and dwellings in buildings in need of repair.*

## TƏHSİL VƏ MƏDƏNİYYƏT

**Məktəbəqədər təhsil müəssisələri –** məktəb yaşına çatmamış uşaqların erkən yaş dövründən intellektual, fiziki və psixi inkişafını, sadə əmək vərdişlərinə yiyələnməsini, istedad və qabiliyyətinin üzə çıxarılmasını, sağlamlığının qorunmasını, estetik tərbiyəsini, təbiətə və insanlara həssas münasibətinin formalaşmasını təmin edən müəssisələrdir.

**Məktəbəqədər təhsil müəssisələrində uşaqlar –** ilin əvvəlində tərtib edilən siyahıya düşən məktəbəqədər yaşlı uşaqlar aid edilirlər.

**Ümumi təhsil müəssisələri –** uşaqlara və gənclərə savad, hərtərəfli inkişaf və estetik tərbiyə verən müəssisələrdir. Ümumi təhsil müəssisələri bir və bir neçə təhsil proqramı əsasında təhsil prosesini həyata keçirir. Ümumi təhsil müəssisələrinə ibtidai, ümumi orta və tam orta ümumtəhsil məktəbləri, ümumtəhsil internat məktəbləri, xüsusi məktəblər və xüsusi internat məktəbləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəbləri, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün müəssisələr, istedadlı uşaqlar üçün məktəblər, gimnaziyalar, liseylər aid edilir.

**İlk peşə-ixtisas təhsil müəssisələri (peşə məktəbləri və peşə liseyləri)** – müxtəlif peşədən olan nadir və ənənəvi sənətkarlıq sahələrinin dirçəlməsinə yönəldilən ilk peşə-ixtisas təhsili müəssisələridir. İlk peşə-ixtisas təhsil müəssisələrinə icbari təhsili başa vuran, sənətə meylli, müxtəlif istehsal sahələrində peşə hazırlığını artırmaq istəyən, həmçinin peşəni dəyişdirmək arzusunda olan gənclər qəbul olunurlar.

**Orta ixtisas təhsili müəssisələri (kolleclər)** orta təhsilli peşəkar mütəxəssislər hazırlayır. Bunlara sənaye, tikinti, nəqliyyat, kənd təsərrüfatı, iqtisadi, pedaqoji, musiqi, mədəni-maarif kollecləri və tibb, xoreoqrafik məktəbləri aiddir.

Orta ixtisas təhsili müəssisələrində mütəxəssislərin hazırlanması istehsalatdan ayrılmaq və ya ayrılmamaq şərti ilə aparılır.

Orta ixtisas təhsili müəssisələr təhsilin formasına (əyani, qiyabi) və təhsili müəssisəsinin sahələr üzrə ixtisaslaşdırılmasına görə bölüşdürülür. Orta ixtisas təhsili müəssisəsi dövlət və qeyri-dövlət ola bilər.

**Ali təhsil müəssisələrinə** akademiyalar, universitetlər və institutlar aiddir. Ali təhsil pilləsində cəmiyyətin və əmək bazarının tələbatı nəzərə alınmaqla yüksək ixtisaslı mütəxəssislərin və elmi-pedaqoji kadrların hazırlığını həyata keçirir və bu hazırlıq **“Bakalavriat”, “Magistratura”** (tibb təhsili istisna olmaqla) və **“Doktorantura”** səviyyələridir.

**Qeyri-dövlət ali və orta ixtisas təhsili müəssisələrinə** dövlət lisenziyasına malik olan ali və orta ixtisas təhsili müəssisələri aiddir.

**Təhsil müəssisələrində təhsil alanların sayına** ümumi təhsil, orta ixtisas, ilk peşə-ixtisas və ali təhsil müəssisələrdə təhsil alan və tədris ilinin əvvəlində siyahıya düşənlər aid edilirlər.

Orta ixtisas və ali təhsil müəssisələrdə təhsil alan tələbələrin ümumi sayına Azərbaycan Respublikasında təhsil alan xarici vətəndaşlar daxil edilməmişdir.

**Təhsil müəssisələrinə qəbul** – tədris ilində təhsil almağa qəbul edilən şəxslərin sayının göstəricisidir. Qəbul olunanların sayına ikinci ilə qalanlar və əvvəl oxuyanların sayından yenidən təhsilə qayıdanlar daxil edilmir.

**Təhsil müəssisələrindən buraxılış -** təhsil müəssisələrində müvafiq təhsil (ixtisas) alaraq həmin müəssisəni bitirmiş şəxslərin sayı nəzərdə tutulur. Tam orta ümumi təhsil müəssisələrini (gimnaziyaları, liseyləri) bitirmiş ali təhsil müəssisələrinə, həmçinin ilk peşə-ixtisas və orta ixtisas təhsili müəssisələrinə daxil olmaq hüququ verən tam orta təhsil haqqında attestat alırlar. Orta ixtisas təhsili müəssisələrini (texnikumlar, kolleclər), eləcə də ali təhsil müəssisələrini bitirənlərə diplom və ixtisasa uyğun olaraq mütəxəssis adı verilir.

**Doktorantura** ali təhsilin ən yüksək səviyyəsi olmaqla elmi və elmi-pedaqoji kadrların hazırlanmasını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin edir.

Doktorantura təhsili ali təhsil müəssisələrində və elmi təşkilatlarda yaradılan doktoranturalarda həyata keçirilir və müvafiq elmi dərəcənin verilməsi ilə başa çatır. Elmi dərəcələr ali təhsil müəssisələrində və elmi təşkilatlarda fəaliyyət göstərən dissertasiya şuralarının vəsatəti əsasında qanunvericiliyə uyğun olaraq verilir.

Azərbaycan Respublikasında fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcələri göstərilməklə müəyyən edilmişdir.

**Kütləvi kitabxanalar** – universal kitabxana fondlarına malik olan və təhsil və ixtisas səviyyəsi, dini etiqad və digər əlamətlər üzrə məhdudiyyət qoyulmadan əhalinin bütün təbəqələrinin ədəbiyyata kütləvi tələbatını təmin edən kütləvi kitabxanalardır.

**Kitabxana fondu** – müəyyən qaydada sistemləşdirilmiş və ümumi istifadə üçün oxucuların sərəncamına verilmiş çap əsərlərinin toplusu.

İl ərzində fərdi abunə üzrə kitab götürmüş **oxucuların ümumi sayı** il ərzində son formulyarın (kitabxana kartoçkası) sıra nömrəsi ilə müəyyən olunur.

**Klub müəssisələri** – əhalinin asudə vaxtını, özfəaliyyət xalq yaradıcılığı kollektivlərinin və digər klub tipli formalaşmaların fəaliyyətini təşkil edən klubların,

mədəniyyət evlərinin, incəsənət işçiləri və müəllim evlərinin, asudə vaxt mərkəzlərinin, avtoklubların və s. aid olduğu mədəni-maarif müəssisələridir.

**Kinoteatrlar** – xüsusi təchiz edilmiş, digər məqsədlər üçün istifadə olunmayan yerlərdə quraşdırılan stasionar kino qurğularıdır; iki, üç və daha artıq zala malik kinoteatr bir kinoteatr kimi nəzərə alınır; müstəqil müdiriyyəti olmasından və digər kinoteatrlarla ümumi müdiriyyətlə birləşdirilməsindən asılı olmayaraq kinoteatr ayrıca uçot vahidi kimi götürülür.

**Peşəkar teatrlar** – tərkibində **peşəkar** truppası olan, hüquqi şəxs sayılan - teatr sənətinin yaradıcı kollektivləridir. Onların sırasına opera və balet, musiqili komediya (operetta), dram, uşaq, gənc tamaşaçılar və kukla teatrları daxil edilir.

**Muzey –** tarixi, maddi mədəniyyət abidələrinin toplanması, mühafizəsi, komplektləşdirilməsi, öyrənilməsi, kütləvi nümayişinin və təbliğinin həyata keçirildiyi mədəniyyət elmi-tədqiqat müəssisələridir.

## *EDUCATION AND CULTURE*

***Pre-school educational institutions*** *- are educational institutions which provide children under school age with intellectual, physical and mental development at an early age, acquisition of simple labor skills, finding out the talent and abilities, protection of health, aesthetic education, formation of sensitive attitude to nature and humans.*

***Children at pre-school educational institutions -*** *include number of children under school age enrolled in pre-school educational institutions at the beginning of the year.*

***General educational institutions -*** *are institutions that provide children and youth with general training and cultural and physical development as well as with esthetic education. General educational institutions realize training process based on one or several educational programs. General educational institutions include primary, general secondary and completed secondary institutions and schools for children with physical and mental defects as well as gymnasiums and lyceums.*

***Primary vocational educational institutions -*** *are aimed to improve different rare types of trade and renovation of forgotten traditional directions in handicraft. Enrollments of primary vocational educational institutions are persons with incomplete secondary education, willing to get knowledge in different spheres of handicraft or change own profession.*

***Secondary specialized educational institutions*** *(colleges) provide with specialists having secondary education and include industrial, construction, transport, agricultural, economic, pedagogical, musical, general cultural and educational, colleges as well as medical and choreographic schools. Training of specialists in these institutions is carried out both without discontinuing or continuing work.*

*Secondary specialized educational institutions are classified by type training (daytime, evening, by correspondence) as well as by industrial grouping of educational fields. Secondary specialized educational institutions may be state or private.*

***Higher educational institutions*** *include academies, universities, and institutions. Higher educational institutions prepare high level specialists and scientific-pedagogical staff taking into account requirements of society and labor market and this training includes "bachelor", "magistracy" and "doctorate" level.*

***Number of non-state higher and secondary educational institutions*** *includes technical institutions and higher institutions with state license.*

***Students attending educational institutions*** *refers to the number of students attending general educational institutions, secondary specialized and primary vocational educational institutions as well as institutions of higher education; students are registered as of the beginning of the school year.*

*Foreign citizens educated in Azerbaijan Republic are not included to the total number of students educated in secondary and high schools.*

***Admission to educational institutions*** *refers to the number of persons admitting to educational institutions in the given school year. This category does not include repeaters and persons previously dropped out and then returned.*

***Students graduating educational institutions -*** *refers to the number of persons who completed training course in educational institutions and received a profession. Graduates of full completed secondary general institutions (gymnasiums, lyceums) receive a certificate which enables them to enter institutions of higher education as well as primary vocational educational institutions and similar secondary specialized educational institutions with reduced duration of training. Persons graduated from secondary specialized educational institutions receive diploma and qualification in accordance with specialization.*

***PhD program*** *being of a high level of the higher education provides training of the scientific and pedagogical staff, as well as improvement of skill qualifications and scientific degree.*

*PhD program is carried out by higher educational institutions and scientific organizations and finalized by appointment of corresponding scientific degree. Scientific degrees are presented according to legislations based on application of the dissertation board that are functioned in higher educational institutions and research organizations.*

*The following scientific degrees are defined in the Republic of Azerbaijan:*

- *PhD – doctor of philosophy;*
- *DSc - doctor of science*

***Public libraries*** *– libraries with universal library funds satisfying public requirements of all levels of population for literature without any restrictions by education, specialty level, religious conviction and other characteristics.*

***Library stock****– set of printed works systematized in a certain order and placed at the disposal of readers for general use.*

***Clubs -*** *cultural and educational institutions consist of clubs, culture homes, art centers, teacher's houses and houses of artists, free time centers, auto clubs and etc., which organize free time of population, activity of amateur folk art collectives and other club type formations.*

***Movie theatres*** *– stationary movie installations installed in specially equipped places, which are not used for other purposes; movie theatres with two, three and more projection booth are considered as one movie theatre; in spite of the fact that they have independent directorate and joining up with other movie theatres under common directorate, movie theatres are accepted as a separate accounting unit.*

***Professional theatres*** *– creative collectives of dramatic art with professional troupe which are considered legal entity. They include opera and ballet, musical comedy (operetta), dramatic, child and young people's theatres and puppet shows.*

***Museums*** *are research and cultural, educational institutions engaged in collection, protection, study of historical materials and cultural monuments, as well as its propaganda.*

## SAĞLAMLIĞIN MÜHAFİZƏSİ

**Həkimlərin ümumi sayına -** müalicə, sanitariya təşkilatlarında, sosial təminat müəssisələrində, elmi tədqiqat institutlarında, kadr hazırlanması ilə məşğul olan müəssisələrdə, səhiyyə orqanları aparatında və s. yerlərdə işləyən ali tibbi təhsili olan bütün həkimlər daxil edilir.

**Orta tibb işçilərinin ümumi sayına** - müalicə, sanitariya təşkilatlarında, sosial təminat müəssisələrində, məktəbəqədər müəssisələrdə, məktəblərdə, uşaq evlərində və s. yerlərdə işləyən orta tibbi təhsili olan bütün şəxslər daxil edilir.

**Əhaliyə ambulator-poliklinika yardımı göstərən tibb müəssisələrinin sayına** ambulatoriya qəbulu ilə məşğul olan bütün tibb müəssisələri (poliklinikalar, ambulatoriyalar, dispanserlər, xəstəxanaların poliklinika şöbələri, həkim səhiyyə məntəqələri və s.) aid edilir.

## *HEALTH PROTECTION*

***Total number of physicians*** *includes all physicians with higher medical education, employed in treatment and sanitary organizations, social security institutions, research institutions, training establishments, as well as institutions of public health bodies and etc.*

***Total number of paramedical staff*** *includes all persons with secondary medical education who employ in treatment and sanitary organizations, social security institutions, preschool institutions, schools as well as children's homes and etc.*

***Number of medical institutions rendering out patient services to the population*** *includes all medical institutions such as polyclinics, ambulatories, dispensaries, outpatientdepartments of hospitals, health centers, etc.).*

# TURİZM

**Turizm -** Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərti ilə istirahət, sağlamlaşdırma, tanış olma, idrakı (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və s.), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələridir (səyahətləridir).

**Turist -** istirahət, sağlamlaşdırma, tanış olma, idrakı (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə getdiyi ölkədə ödənişli fəaliyyətlə məşğul olmamaq şərti ilə, 24 saatdan 12 ayadək müddətdə müvəqqəti olan şəxsdir.

**Tur -** konkret müddətdə konkret marşrut üzrə fərdi və ya qrup halında səfərdən ibarət olan, turizm məhsulunun vauçer şəklində satılan formasıdır.

**Turizm yollayışı -** ciddi hesabatlı blank olub, proqramla nəzərdə tutulmuş xidmətlərin ödənildiyini təsdiq edən sənəddir.

**Turizm məhsulu-** turistlərə göstərilən xidmətlər kompleksidir (turistlərin yerləşdirilməsi, daşınması, yeməyi üzrə xidmətlər kompleksi, ekskursiya, həmçinin bələdçi (bələdçi-tərcüməçi) xidmətləri və səfərin məqsədlərindən asılı olaraq göstərilən digər xidmətlər).

**Mehmanxana və mehmanxana tipli müəssisələr -** nömrələrinin sayı müəyyən minimum sayından çox olan, vahid rəhbərliyə malik, nömrələrində gündəlik yataqların səliqəyə salınması və sanitar qovşağının yığışdırılması daxil edilməklə, turistlərə müəyyən xidmətlər göstərən, xidmətlərin və mövcud olan avadanlıqların səviyyəsinə əsasən qrup və kateqoriyalara bölünən müəssisələrdir.

**Mehmanxana və mehmanxana tipli müəssisələrin kateqoriya nişanı-** müəssisələrin kateqoriyası attestasiya məlumatına uyğun olaraq sayı birdən beşə qədər olan ulduzlar dəsti ilə ifadə olunur.

**Nömrə fondu -** yerləşdirmə obyektlərində nömrələrin ümumi sayı nəzərdə tutulur. Yerləşdirmə obyektlərində turistlərin müvəqqəti qalması üçün lazımi mebeli, avadanlığı və inventarı olan bir və ya bir neçə otağı olan sahə nömrə adlanır.

**Gecələmələr -** nömrə və yerlərin bronlaşdırılmasını daxil etməklə, il ərzində istifadə olunmuş daimi və müvəqqəti yerlərin sayını əks etdirir və mehmanxanada gecələyənlərin qeydiyyat kitabı əsasında təyin edilir. Bu göstərici “il ərzində təqdim edilən çarpayı - sutka” göstəricisi ilə eyni olub hesabat ili ərzində təqdim edilən çarpayıların sayını əks etdirir. Mehmanxanaların orta yüklənmə əmsalı (Y hesabat dövründə gecələmələrin sayının birdəfəlik tutuma nisbəti kimi hesablanır·

$$Y = \frac{\text{Gecələmələrin sayı}}{\text{Birdəfəlik tutum x Hesabat dövründə günlərin sayı}} \times 100$$

## *TOURISM*

***Tourism*** *is a temporary leaving (traveling) of the permanent residence by citizens of Azerbaijan as well as foreigners and persons without any citizenship for the purpose of job-duty (excluding implementation of the jobs), rest, familiarization with historical and cultural wealth, recovery, sport, and religious without carrying out any paid activity in the country of temporary living.*

***Tourist*** *is a person who temporary leaves (traveling) permanent residence from 24 hours to 12 months for the purpose of job-duty (excluding implementation of the job), rest, familiarization with historical and cultural wealth, recovery, sport, and religious without carrying out any paid activity in the country of temporary living.*

***Tour*** *is a form of trip in individual or group form based on concrete route as or definite time.*

***Tourist blank*** *is a document that confirms payment of services considered in the program.*

***Tourist services*** *are complex of services such as accommodation, transportation and feeding of the tourists, as well as excursion, provision with guide-interpreter and other services provided irrespective of purpose of journey.*

***Hotels and enterprises of hotel type*** *include enterprises that provide tourists with certain services and classified by categories based on level of services and available equipments including having more number of rooms, unit management and etc.*

***Categories of hotels and enterprises of hotel type.*** *Referring of the enterprises to defined categories is expressed with number of stars from one to five.*

***Room fund*** *is total number of rooms at the hotel, which are equipped with necessary furniture, inventory and etc.*

***Overnight stop*** *includes number of permanent and temporary places (including booking of the room) used during year and is defined based on registration book at the hotel. This indicator reflects number of beds used during the reporting year (beds used during year-day). Average rate is calculated as ratio of average per day number of overnight stops to onetime capacity.*

$$K = \frac{\text{Number of overnight stops}}{\text{Onetime capacity x number of days during the reporting period}} \times 100$$

# CİNAYƏTKARLIQ

**Cinayətkarlıq** – müəyyən olunmuş vaxt müddətində konkret ərazidə baş vermiş cinayətləri əks etdirən, kəmiyyət və keyfiyyət göstəriciləri ilə xarakterizə olunan sosial-hüquqi hadisədir.

Cinayətkarlıq əmsalı hesablanarkən mövcud əhalinin orta illik sayına dair məlumatlardan istifadə olunur.

Qeydə alınmış cinayətlər – cinayət qanunvericiliyi ilə nəzərdə tutulmuş, aşkar edilmiş və rəsmi qeydiyyata alınmış ictimai təhlükəli əməldir.

**Cinayət törətmiş şəxslər** – barələrində cinayət işi açılmış və daxili işlər orqanları tərəfindən rəsmi qeydiyyata alınmış şəxslərdir.

**Cinayət məsuliyyətinə cəlb edilmiş şəxslər** – müqəssir kimi məsuliyyətə cəlb edilməsi haqqında qərar verilmiş şəxslərdir.

**Mütəşəkkil cinayətkar qruplar** – varlanmaq və külli miqdarda gəlir əldə etmək məqsədilə birləşmiş qruplardır.

**Məhkum olunmuşların tərkibinə** – qanuni qüvvəyə minmiş məhkəmələrin hökmü ilə haqqında qərar çıxarılmış müttəhimlər aid edilir.

# *CRIMES*

***Crime*** *– is the social-juridical incident that is characterized by quantity and quality indicators and reflects crimes in concrete locality during defined time.*

*On estimation of crime rate the information on average annual number of available population is used.*

***Registered crimes*** *– is the public and dangerous action that is considered by crime legislation, revealed and officially registered.*

***Persons committed crime*** *– are persons for which the criminal case was initiated and officially registered by Authorities of Internal Affairs.*

***Persons charged with criminal liability*** *– are persons sentenced to imprisonment as offender.*

***Organized criminal groups*** *– are groups formed for the purpose to become rich and earn a lot of income.*

***Convicts*** *include defendants for which judgment was pronounced by law court.*

# TİCARƏT

**Pərakəndə ticarət dövriyyəsi -** əsasən əhaliyə onun istifadəsi və ya istehlakı üçün yeni və ya istifadə olunmuş malların emal edilmədən satışını əks etdirir.

**Topdansatış ticarət dövriyyəsi** - yeni və ya istifadə olunmus malların pərakəndə ticarət, sənaye, kommersiya müəssisələrinə, institusional və ya pesəkar istehlaklçılara, digər topdansatıs ticarətçilərinə, həmcinin malların alqı-satqısı zamanı bu kimi səxslərin və sirkətlərin adından cıxıs edən agent və ya vasitəçilərə emal edilmədən təkrar satısını ifadə edir.

**Ticarət dövriyyəsinin fiziki həcm indeksi** məhsullar üzrə istehlak qiymətləri indeksi tətbiq edilməklə deflyasiya olunmuş cari göstəricinin baza göstəricisi ilə müqayisə edilməsi əsasında hesablanır. Ticarət dövriyyəsinin fiziki həcm indeksi qiymət dəyişikliklərinin təsiri istisna edilməklə fiziki həcmdəki dəyişikliyin dövriyyəyə təsirini ifadə edir.

Pərakəndə və topdansatış ticarət dövriyyəsi hüquqi şəxs statusuna malik iri, orta və kiçik müəssisələrin, fərdi sahibkarların rəsmi statistika hesabatı məlumatları əsasında, həmçinin bazar və yarmarkaların ticarət fəaliyyəti üzrə statistik müayinələrin nəticələri əsasında formalaşır.

Hüquqi şəxslər üzrə bu göstəricilər əsas fəaliyyət növü ticarət olan təşkilatların, eləcə də iqtisadiyyatın digər sahələrinin əhaliyə istehlak malları satan müəssisələrinin hesabatları əsasında hesablanır. İri və orta müəssisələr üzrə aylıq, kiçik müəssisələr üzrə rüblük dövriliklə aparılan statistik uçot əsasında pərakəndə və topdansatış ticarət dövriyyəsinin həcmi hesablanır.

Fərdi sahibkarlar tərəfindən satılan əmtəələrin həcmi beynəlxalq metodologiyaya uyğun aparılan seçmə müşahidələr əsasında hesablanır.

Ticarət şəbəkəsinin mal ehtiyatları ilə təminatını xarakterizə edən qalığın nisbi səviyyəsi pərakəndə ticarət dövriyyəsinin mal qalığı hesabına təmin oluna biləcək ticarət günlərinin sayını əks etdirib, birgünlük orta mal qalığının birgünlük ticarət dövriyyəsinə nisbəti kimi hesablanır.

# *TRADE*

***Retail trade turnover*** *is defined as the resale (sale without transformation) of new and used goods mainly to the general public for personal or household consumption or utilization.*

***Wholesale trade turnover*** *is defined as the resale (sale without transformation) of new and used goods to retailers, business-to-business trade (for example, to industrial, commercial, institutional or professional users) or resale to other wholesalers, or it involves acting as an agent or broker in buying merchandise for, or selling merchandise to, such persons or companies.*

***Volume index of trade turnover*** *is calculated by comparing the base indicators with a deflated current valuxe through application of consumer price*

*index of goods.Volume index of turnover shows how volume change impacts on turnover, excluding impact of changes in price.*

*Retail trade and wholesale trade turnover has been calculated on the base of information on large, medium and small enterprises having status of legal entity, individual entrepreneur and the results of statistical sample observations conducted on trade activity as well as of market and fairs.*

*Indicators turnover are calculated on the basis of reports on large, medium and small enterprises on all fields of economy having status of legal entity that sell consumer goods. The volume of retail trade and wholesale turnover is calculated on the basis of monthly statistical records from large and medium-sized businesses and on quarterly statistical records from small enterprises.*

*The volume of goods sold by physical persons is calculated on the base of sample observations according to international methodology.*

*Relativity level of stock characterized the supply with goods recourses of trade net reflects the number of days which could be supplied due to stock of retail trade turnover. And it is calculated as relativity of average stock per day to trade turnover per day.*

## ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ

**Qoruqlar -** təbii kompleksin qorunub saxlanılması və onun istər qoruğun sərhədləri daxilində, istərsə də ondan kənardakı ekoloji şəraitlə müqayisə edilərək öyrənilməsi üçün coğrafi zonaların təsərrüfat istifadəsindən çıxarılmış nadir və ən tipik sahələridir.

**Milli parklar** - xüsusi ekoloji, tarixi, estetik və digər əhəmiyyət daşıyan təbiət komplekslərinin yerləşdiyi və təbiəti mühafizə, maarifçilik, elmi, mədəni və digər məqsədlər üçün istifadə olunan təbiəti mühafizə və elmi tədqiqat idarələri statusuna malik olan ərazilərdir. Milli parklarda insanların istirahət etməsinə icazə verilir.

**Dövlət təbiət yasaqlıqları** – torpaq mülkiyyətçidən**,** istifadəçidən və icarəçilərdən alınmadan qanunvericiliklə müəyyən edilmiş qaydada onların torpaq sahələrində təşkil edilir. Yasaqlıqlarda bir sıra təsərrüfat işləri aparmaq olar.

**Təbii mənbələrdən götürülən su** - sonradan istifadə edilmək məqsədi ilə səthi su hövzələrindən (çaylar, göllər və dənizlər də daxil edilməklə) və yeraltı laylardan götürülmüş su resurslarının həcmidir. Götürülən suyun ümumi həcminə faydalı qazıntılar çıxarılarkən, tikinti üçün özül yerlərindən torpaq suları nasosla çəkilərkən əmələ gələn və istifadə edilən şaxta-mədən suları daxil edilir. Elektrik enerjisi almaq, gəmiləri şlüzdən keçirmək, balığı boşaltmaq, gəmilərin hərəkət etməsi üçün dərinliyi saxlamaq və s. məqsədi ilə su qovşağından buraxılan suyun həcmi bu göstəriciyə daxil edilmir. İri kanallara tökülmək üçün quyulardan, artezian quyularından, təbii su hövzələrindən qeyri- mərkəzləşdirilmiş qaydada götürülən suyun həcmi də həmçinin bu göstəriciyə daxil edilmir.

**Atmosfer havasına atılan çirkləndirici maddələr** – atmosfer havasına atılan və müəyyən qatılıq həddində insan sağlamlığına və ətraf mühitə zərərli təsir göstərən maddələr və ya onların qarışıqlarıdır.

**Ətraf mühitin mühafizəsinə və təbii resurslardan səmərəli istifadə üçün əsas kapitala yönəldilmiş vəsait** dedikdə, konkret ekoloji və resursqoruyucu güclərin, qurğuların, aqreqatların və s. tikintisinə, yenidən qurulmasına, genişləndirilməsinə və texniki cəhətdən silahlandırılmasına qoyulan investisiyaların həcmi başa düşülür. Buraya əsasən, çirkli istehsal və kommunal sularının təmizlənməsi üzrə qurğu və avadanlıq, tozqaztəmizləyici qurğular, dövri su təchizatı sistemləri, eroziyaya qarşı hidrotexniki qurğular (səpməyə, çökməyə qarşı qurğular da daxil edilməklə), sıradan çıxmış torpaqların (qismən) rekultivasiyası, vəhşi heyvanların, quşların və qiymətli balıq ehtiyatlarının qorunması və təkrar istehsalı üzrə qurğu və obyektlər, faydalı qazıntılardan tam və kompleks şəkildə istifadə edilməsi üzrə qurğular və s. aid edilir. Ümumi istehsal xərclərinin azaldılması, məhsulun keyfiyyəti və s. ilə bağlı olan texniki silahlanmaya, eləcə də ətraf mühitin mühafizəsinə kapital xərcləri, bir qayda olaraq, buraya daxil edilmir.

## *ENVIRONMENTAL PROTECTION*

***Reserves*** *are unique and typical areas of geographic zones withdrawn from economic use for maintenance of natural complex and study of it within or out of boundaries of reserve for comparison with ecological situation.*

***National parks*** *are the area of special ecological, historical, aesthetic importance where the natural complexes are located and used for nature protection, educative activities, scientific and other purposes and having status of nature protection and scientific research departments. Recreation of people in national parks is permitted.*

***State nature preserves*** *– land is organized in land areas of owners, users and renters in a manner defined by the legislation without deprival of lands. There could be carried out several farming activities in preserves.*

***Water extracted from natural sources*** *is the total volume of water removed from surface water bodies (rivers, lakes and seas) and aquifers for consumption. The total volume of water withdrawn includes frost-mining waters used and arising during extraction of mineral resources, drawing ground water through pump for construction. This does not include water used for electric power generation, ship lock passage, unloading of fish and maintenance of navigable depth. The volume of water stored in reservoirs to be delivered to big channels, as well as artesian wells and other natural water resources are included.*

***Pollutants thrown into the atmosphere*** *– ingredients or certain density mixtures of harmful effects on human health and environment thrown into the atmosphere.*

***Investments to environment protection and rational use of natural resources*** *are the volume of investments for construction, reconstruction, expanding and technical re-equipment of concrete ecological and resource protecting capacities. This mainly includes equipment and installation for refining of polluted industrial and communal water, dust/gas refining installations, hydro- technical installations against erosion (including installations against the deposit of sediments), recultivation of unused lands, objects and installations for the protection of wild*

*animals and fish resources, installations for recycling etc. Costs for the reduction of manufacturing expenses, quality improvement etc., and capital expenditures for environmental protection are not included.*

## MİLLİ HESABLAR SİSTEMİ

Milli hesablar sistemi bazar iqtisadiyyatı şəraitində makroiqtisadi prosesləri özündə əks etdirən, bir-biri ilə qarşılıqlı əlaqəli olan və 150-dən çox ölkədə tətbiq edilən göstəricilər sistemidir.

Bu sistemin metodoloji əsasları Tədiyə balansı və Dövlət maliyyəsi statistikasının metodoloji əsasları ilə sıx bağlıdır.

Dövlət Statistika Komitəsində Milli hesablar sisteminin tətbiqi Birləşmiş Millətlər Təşkilatı, Beynəlxalq Valyuta Fondu, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, Dünya Bankı və Avropa Komissiyası tərəfindən birgə qəbul edilmiş 2008-ci ilin Milli hesablar sisteminin (MHS-2008) və beynəlxalq statistika təşkilatlarının bu sahəyə aid tövsiyələrinə uyğun həyata keçirilir.

Milli hesablar sistemində (MHS) istehsal, gəlirlərin yaranması, bölüşdürülməsi və istifadəsi proseslərinin nəticələri bir-biri ilə qarşılıqlı əlaqəsi olan ardıcıl hesablarda iqtisadiyyatın sahələri və institusional sektorlar üzrə qruplaşdırılır.

MHS-ə aşağıdakı hesablar daxildir:

- Məhsul və xidmətlər hesabı;

- İstehsal hesabı;

- Gəlirlərin yaranması hesabı;

- Gəlirlərin ilkin bölüşdürülməsi hesabı;

- Gəlirlərin təkrar bölüşdürülməsi hesabı;

- Sərəncamda qalan gəlirlərin istifadəsi hesabı;

- Kapitalla əməliyyatlar (Əsaslı xərclər) hesabı.

Milli hesablar sistemində funksiyaları və maliyyələşmə mənbələri eyni olan rezident iqtisadi vahidlər aşağıdakı sektorlar üzrə qruplaşdırılır:

- Qeyri-maliyyə korporasiyaları sektoru

- Maliyyə korporasiyaları sektoru

- Dövlət idarəetməsi sektoru

- Ev təsərrüfatlarına xidmət edən qeyri-kommersiya təşkilatları sektoru

- Ev təsərrüfatları sektoru.

Bunlarla yanaşı, MHS-də qeyd olunan sektorların xarici ölkə rezidentləri ilə həyata keçirdikləri iqtisadi əməliyyatların nəticələrini əks etdirən "Qalan dünya" hesabı və eyni adlı sektor da mövcuddur.

Məhsul və xidmətlərin ümumi buraxılışı nəzərdən keçirilən dövr ərzində rezident iqtisadi vahidlərin istehsal fəaliyyətinin nəticəsi olan məhsul və xidmətlərin dəyərini səciyyələndirir. MHS-də istehsal fəaliyyətinin sərhədlərinin qəbul olunmuş anlayışına uyğun olaraq məhsul və xidmətlər buraxılışı aşağıdakıları əhatə edir.

1) digər iqtisadi vahidlərə təqdim edilən mal və xidmətlər;

2) istehsalçının maddi dövriyyə vəsaitləri ehtiyatlarına daxil edilən məhsul da nəzərə alınmaqla, özünün son istehlakı və ya yığımı üçün istehsal olunan məhsul;

3) istehsalçının şəxsi son istehlakı üçün istehsal edilən bəzi xidmətlər.

Göstərici üzrə məlumatların əhatəliliyini təmin edilməsi üçün hesablamalarda rəsmi hesabatlardan kənarda qalan istehsal da (qanunla qadağan edilmiş mal və xidmətlərin istehsalı, rəsmi icazə olmadan həyata keçirilən fəaliyyətin nəticələri, icbari vergi və ödənişlərdən yayınmaq məqsədilə gizlədilən istehsal və s.) nəzərə alınmalıdır.

Mal və xidmətlər buraxılışı bazar və qeyri-bazar buraxılışlarına bölünür.

Bazar buraxılışına aşağıdakılar aid edilir:

a) satış və ya barter yolu ilə iqtisadi cəhətdən əlverişli qiymətlərlə realizə edilən məhsul buraxılışı;

b) buraxılışın əmək haqqı əvəzinə natura şəklində işçilərə verilən hissəsi;

c) buraxılışın həmin və ya sonrakı dövrlərdə istehsalda istifadə etmək üçün müəssisənin digər bölmələrinə (müstəqil balansda olan və ya ayrıca uçot vahidi hesab olunan bölmələrə) göndərilən hissəsi (məsələn, kənd təsərrüfatı müəssisəsində istehsal olunan və onun daxilində istifadə edilən toxum və yemlər; yardımçı təsərrüfatlar tərəfindən müəssisəyə məxsus olan yeməkxanalara, uşaq müəssisələrinə, istirahət evlərinə və s. verilən ərzaq məhsulları) və s.

Qeyri-bazar buraxılışına aşağıdakılar aid edilir:

a) institusional vahidlər tərəfindən öz son istehlakı və ya əsas kapitalının yığımı üçün istehsal edilən məhsul və xidmətlər (məsələn, şəxsi yardımçı təsərrüfatlarda istehsal olunan kənd təsərrüfatı məhsulları və digər məhsullar, təsərrüfat üsulu ilə həyata keçirilən tikinti, ev qulluqçularının göstərdikləri ödənişli xidmətlər və s.)

b) bütövlükdə ictimaiyyətə göstərilən kollektiv xidmətlər də daxil edilməklə, digər institusional vahidlərə pulsuz və ya iqtisadi cəhətdən əhəmiyyət kəsb etməyən qiymətlərlə göstərilən xidmətlər (məsələn, pulsuz təhsil və tibbi xidmət, dövlət idarəetməsi, müdafiə xidmətləri və s.).

Məhsul və xidmətlərin bazar buraxılışı əsas qiymətlərlə qiymətləndirilir.

Aralıq istehlak müəyyən dövr ərzində məhsul və ya xidmətlər istehsal etmək məqsədilə istifadə olunmuş mal (əsas fondlar istisna olmaqla) və bazar xidmətlərinin dəyəridir.

Aralıq istehlakı məhsul və xidmətlərin istehsal prosesinə daxil olduğu vaxt mövcud olmuş istehlakçı qiymətləri ilə qiymətləndirilir.

Ümumi daxili məhsul (ÜDM) milli hesablar sisteminin ən mühüm göstəricilərindən biridir, istər maddi istehsal, istərsə də qeyri-maddi xidmətlər sahələrində iqtisadi vahidlərin-rezidentlərin istehsal fəaliyyətinin son nəticəsini xarakterizə edir və bu vahidlərin son istehlak üçün məhsul və xidmətlər istehsalı üzrə yaratdığı əlavə dəyərin həcmi ilə ölçülür.

ÜDM iqtisadi vahidlərin-rezidentlərin məhsul və xidmətlərin istehsalçıları arasında bölüşdürüldüyü ilkin gəlirlərin, yəni muzdlu işçilərin əmək haqqının, istehsala və idxala görə xalis vergilərin, ümumi mənfəətin və ümumi qarışıq gəlirlərin məbləği, başqa sözlə gəlirlər üsulu ilə də müəyyənləşdirilə bilər.

Xərclər (istifadə) üsulu ilə ÜDM məhsul və xidmətlərin son istehlakının, əsas kapitalın ümumi yığımının, maddi dövriyyə vəsaitləri ehtiyatlarının dəyişməsinin, qiymətlilərin (sərvətlərin) xalis əldə edilməsinin və məhsul və xidmətlərin xalis (idxal çıxılmaqla) ixracının cəmi kimi hesablanır.

ÜDM-in fiziki həcm indeksi ÜDM-in müqayisə edilən ilin qiymətləri ilə hesablanmış dəyərinin həmin ilin ümumi daxili məhsuluna bölünməklə hesablanır.

Sərəncamda qalan ümumi milli gəlir bütün institusional vahidlərin-rezidentlərin hesabat dövründə aktivlərini azaltmadan və maliyyə öhdəliklərini artırmadan əldə etdikləri gəlirlərdən ödəniləcək cari transferlər çıxıldıqdan və alınacaq cari transferlər əlavə olunduqdan sonra sərəncamlarında qalan, istehlak və yığım məqsədləri üçün istifadə edilə bilən gəlirlərin cəmidir.

Faktiki son istehlak maliyyələşmə mənbəyindən asılı olmayaraq, rezident-vahidlər tərəfindən son istehlak məqsədləri üçün satın alınmış bütün əmtəə və xidmətlərin dəyəri ilə ölçülür.

Ümumi milli qənaət sərəncamda qalan gəlirin əmtəə və xidmətlərin son istehlakına sərf olunmayan hissəsidir.

## *SYSTEM OF NATIONAL ACCOUNTS*

*System of national accounts is the bilateral indicators system reflecting macroeconomic processes and having mutual relation to each others in the condition of market economy and applied in more than 150 countries.*

*Methodological bases of this system are closely related with methodological bases of payment and interfiled balances.*

*Application of this system in Azerbaijan is realized based on SNA 2008, instructions prepared on the problems of the system of national accounts by international statistical organizations.*

*System of National Accounts (SNA) groups the production, primary and secondary distribution and final use processes in separate mutually related calculations (branches and institutional divisions).*

*The following calculations are included in SNA:*

*- Products and services account;*

*- Production account;*

*- Primary incomes generation account;*

*- Primary incomes distribution account;*
*- Secondary distribution of income account;*
*- Use of disposable income account;*
*- Capital transactions account.*

*In the system of national accounts the economic units with the same functions and financing sources are grouped by the following sections:*

*- Non-financial corporations sector;*
*- Financial corporations sector;*
*- General government sector;*
*- Non-profit institutions served for households sector;*
*- Households sector.*

*In SNA there are also the «Rest of the world» secto rreflecting relations of these sections with other foreign countries' residents, and account with the same title. This sector (account) groups the result sof economic operations carried out by non-resident units with the country residents.*

***Product and services gross output** characterizes the volume of product and services as a result of production activity of economic unitsresidents during the considered period. According to the accepted conception of the borders of production activity in SNA the product and services output reflects the followings:*

*1) product and services forwarded to units without producer;*

*2) product produced for harvest or own final consumption, including product belonging to the resources of financial turnover means of producer;*

*3) some services produced for own final consumption.*

*Product and service production of hidden economy (production of product and service prohibited by the law; volume of production realized by persons having no rights to be engaged in this type of activity, production concealed from the government for the purpose of taxes deviation and concealing of incomes and etc.) should be taken into account in output of product and services.*

*There are two types of output of goods and services:*
*market and non-market.*

*Following product and services are included inmarket output:*

*a) realized by economically advantageous prices by sale or barter way;*

*b) paid for employees in kind as wage;*

*c) forwarded to the sections (the sections in independent balance or considered as separaterecord unit) of the same enterprises for use in production during the same or the next period (for example, grain and fodder produced and used in agriculture enterprise; food products supplied for canteens belonged to enterprise, child enterprises, child enterprises, rest homes and etc., by subsidiary farms.*

*The followings are included in non-market output: a) product and services produced by institutional units for their own final consumption or accumulation of fixed assets (for example, agricultural and other products produced in private subsidiary farms, construction realized by farm method, services provided by housemaids receiving the salary and etc.);*

*b) services for other institutional units without payment or at low prices, including collectiveservices for publicity in general (for example, free education and medical services, state management, defence services and etc).*

*It is recommended to estimate the market output of product and services by main prices, or if it is not possible, by producer's prices.*

***Intermediate consumption** is the valueof product (excluding fixed assets) and marketservices used for the purpose of product or servicesproduction during the definite period.*

*Intermediate consumption calculates in consumer prices.*

***Gross domestic product (GDP)** is one of the most important indicators of the system of national accounts. It characterizes the final result of production activity of economic units-residents in the field of both material production and intangibleservices; and it is measured by the volume of value added originated by these units on production of product and services for final consumption.*

*GDP could be also determined by amount of primary incomes shared between economic unitsresidents and product and services' producers, i.e. wage of employees, net taxes for production and import, in other words - by income method.*

*Expenditure of gross domestic product combines final consumption of product and services, gross accumulation of fixed assets, change of inventories, net purchase of valuables and net export.*

*During the reporting period as compared with the previous period for calculation of volume index GDP it is necessary to divide the quantity of GDP during the reporting period at prices of the previous period by the quantity of GDP at current prices during the previous period.*

***Disposable income** is defined as totalincome at all institutional unit-resident's disposalfor final consumption and savings. It is equal to thebalance of primary incomes plus receivable currenttransfers by deduction of income payable as currenttransfers.*

*In spite of the financial source, the **ACTUAL FINAL CONSUMPTION** reflects value of all goods and services purchased by residents for final consumption,*

***Gross national saving** is a part of income under disposal which is not used for final consumption of goods and services.*

# MALİYYƏ

Bu bölmə Azərbaycan Respublikasının Dövlət büdcəsinin, yerli özünüidarəetmə (bələdiyyə) orqanları büdcələrinin gəlir və xərclərinə, qeyri-maliyyə müəssisə və təşkilatlarının maliyyə nəticələri, həmçinin sığortaçıların (təkrarsığortaçıların) və hüquqi şəxs sığorta brokerlərinin iqtisadi fəaliyyətlərini səciyyələndirən əsas statistik göstəricilərə, iqtisadiyyata kredit qoyuluşlarına, iqtisadiyyata yönəldilən investisiyalara və maliyyə statistikasına dair digər məlumatları özündə birləşdirir.

Hesabat dövrünün **mənfəəti (zərəri)** mühasibat uçotu əsasında müəssisənin bütün təsərrüfat fəaliyyətinin son maliyyə nəticəsidir. Müəssisənin mənfəəti (zərəri), bütün əsas vəsaitlərin və başqa əmlakların, məhsulların (işlərin, xidmətlərin) satışından, həmçinin qeyri-satış əməliyyatlarından əldə edilən gəlirləri (bu əməliyyatlar üzrə xərc məbləğləri çıxılmaqla) özündə birləşdirir.

**Dövlət büdcəsinin gəlirlərinə** dövlət vergiləri, qrantlar və digər gəlirlər daxildir.

**Dövlət büdcəsinin xərclərinə** cari xərclər, əsaslı xərclər və kreditlər üzrə borclar aid edilir.

**Yerli büdcənin gəlirlərinə** bələdiyyələr tərəfindən yığılan vergi və qanunla müəyyən edilən digər yerli ödənişlər, Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya, subvensiya və ssudalar, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq bələdiyyə əmlakının özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər, habelə bələdiyyələrin fəaliyyətindən əldə edilən digər gəlirlər, fiziki və hüquqi şəxslərin, beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları, dövlət əhəmiyyətli tədbirlərin və dövlət orqanlarının qərarları nəticəsində yaranan xərclərin ödənilməsi üçün maliyyə vəsaiti, yerli (bələdiyyə) vergilər və ödənişlərə görə qanunvericiliklə müəyyən edilmiş qaydada hesablanmış faiz və sanksiyalar aiddir.

**Yerli büdcələrin xərclərinin** həcmi və istiqamətləri bələdiyyələr tərəfindən müəyyənləşdirilir. Yerli büdcə bələdiyyənin idarəetmə xərcləri, sosial-məişət, yaşayış, mədəniyyət və idman obyektlərinin, habelə əhalinin ümumi istifadəsində olan küçə, həyət və bağların saxlanması xərcləri nəzərə alınmaqla bələdiyyələrin müəyyən etdiyi xərc normativləri əsasında formalaşdırılır. Yerli büdcələrdə həmçinin yerli sosial müdafiə, sosial və iqtisadi inkişaf, habelə ekoloji proqramların maliyyələşdirilməsi üçün xərclər nəzərdə tutula bilər.

**Sığorta** – sığortalının və ya sığorta olunanın əmlakı, həyatı, sağlamlığı, mülki məsuliyyəti, həmçinin qanunla qadağan olunmayan fəaliyyəti, o cümlədən sahibkarlıq fəaliyyəti ilə əlaqədar olan əmlak mənafelərinin müdafiəsi sahəsində riskin ötürülməsinə və ya bölüşdürülməsinə əsaslanan münasibətlər sistemidir.

**Sığorta müqaviləsi** - sığortalının müvafiq sığorta haqqı ödəməsi müqabilində sığorta obyektinin məruz qala biləcəyi risklərlə bağlı itkilərin, dəyən zərərin əvəzinin və ya razılaşdırılan pul məbləğinin müəyyən bir hadisənin baş verməsi əsasında ödənilməsinin sığortaçı tərəfindən öhdəlik kimi götürülməsi şərtlərinin təsbit edildiyi razılaşmadır.

**Sığorta haqqı** – risklərin qəbul edilməsi və ya bölüşdürülməsi müqabilində könüllü sığortada sığorta müqaviləsi ilə, icbari sığortada isə icbari sığorta qanunları ilə nəzərdə tutulan qaydada sığortalının sığortaçıya ödəməli olduğu pul məbləğidir.

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə, icbari sığorta qanunlarına və ya sığorta müqaviləsinə uyğun olaraq sığortaçı tərəfindən ödənilən maliyyə kompensasiyasıdır.

**İcbari sığorta növləri** - fiziki və hüquqi şəxslərin əmlak mənafeləri ilə bağlı məruz qaldıqları zərərlərin əvəzinin ödənilməsini təmin etmək məqsədi ilə tətbiq edilən, siyahısı, aparılması qaydaları və şərtləri Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Sığorta fəaliyyəti haqqında" Qanunu və "İcbari sığortalar haqqında" Qanunu ilə müəyyən edilən sığorta növləridir.

**Könüllü sığortanın növləri** və müvafiq sığorta qaydaları sığorta nəzarəti orqanı tərəfindən qəbul edilən və fiziki şəxslərə təqdim edilən müəyyən könüllü sığorta növü üzrə bütün sığortaçılar üçün məcburi olan sığorta qaydaları nəzərə alınmaqla sığortaçı tərəfindən müəyyən edilir.

**Kredit qoyuluşları** - bağlanmış müqaviləyə uyğun olaraq qaytarılmaq, müəyyən müddətə (müddətin uzadılması hüququ ilə) və faizlər (komisyon haqqlar) ödənilmək şərti ilə, təminatla və ya təminatsız müəyyən məbləğdə borc verilən pul vəsaitidir.

**Pul aqreqatları** - pul kütləsinin struktur göstəriciləridir. Bu bir-biri ilə likvidlik səviyyəsinə görə (tez bir zamanda nağd pul vəsaitinə çevrilə bilmə imkanına görə) fərqlənən pul və pul vəsaitlərinin növləridir. Belə ki, M0 = dövriyyədə olan nağd pullar (qəpiklər, banknotlar), M1 = M0 + çeklər, tələb olunanadək əmanət və depozitlər, (həmçinin bank debet kartları), təşkilatların hesablarındakı milli valyuta qalıqları, M2 = M1 + təcili yatırımlar, M3 = M2 + əmanət yatırımları, sertifikat və dövlət istiqrazları kimi açıqlanır.

**Pul emissiyası** - tədavülə əlavə pulun buraxılmasıdır.

**İnvestisiya -** gəlir (mənfəət) və ya sosial səmərə əldə etmək məqsədi ilə sahibkarlıq və digər fəaliyyət növləri obyektlərinə qoyulan maliyyə vəsaitindən, habelə maddi və intellektual sərvətlərdən ibarətdir.

**Birbaşa investisiyalar** - xarici müəssisələrdə uzun müddətə yerləşdirilən və onların fəaliyyəti üzərində müəyyən nəzarəti təmin edən sərmayələrdir.

# *FINANCE*

*This section comprisesinformation about income and expenditures of State budget of Azerbaijan Republic and municipialities budgets, the main statistical indicators which characterized non-finance institutions finance results, also insurers (reinsurers) and legal entity of insurance brokers economical activities, loans to the economy, investment in the economy and other information about finance statistics.*

***Profit (loss)*** *of an enterprise is the final financial result of its economic activities. Profit comprises income gained as the result of the sale of fixed assets and other property, and products (work, services).*

***Income of the state budget*** *include state taxes, grants and other incomes.*

***Expenditures of the state budget*** *include current expenditures, capital expenditures and expenditures of service to debt on loans.*

***Income of local budgets*** *include taxes collected by municipialities and other payments specified with relevant laws,allocation of donations, subventions and loans from the state budgetof Azerbaijan Republic, funds obtained from privatization, lease of municipal property according to the Azerbaijan legislation, as well other funds created as the result of municipal activity, finance donations and grants from the physicial and legal entities, international organizations and funds,payments for financing of events of state importanceand expenses as a result of decisions made by executive power bodies,sanctions and interest rates counted by local taxes and payments in the manner specified with law.*

*The volume and directions of* ***expenditures of local budgets*** *are determined by municipalities. Local budget is formed based the norms of expenditures defined by the municipialities taking into account operational expenses, maintenance of social, housing, cultural and sports establishments and maintenance of public streets, parks and squares. Local budgets may also designate funding for social*

*protection programs, social and economic development programs and environmental programs.*

***Insurance*** *- the system of the relations which is based on transfer or distribution of risks in the sphere of protection of the valuable interests connected with property, life, health, the civil responsibility, and also the activities, including business activity of the insurer which are not forbidden by the law or insured.*

***The insurance contract*** *- the agreement in which conditions of acceptance by the insurer on themselves obligations of payment based on approach of certain case of compensation or the approved sum of money for the caused damage, losses in connection with risks to which object of insurance, instead of payment of the corresponding insurance premium by the insurer can undergo are enshrined.*

***Insurance premium*** *- the sum of money paid to the insurer from the insurer instead of acceptance or distribution of risks according to the insurance contract in case of voluntary insurance and to the laws on compulsory insurance in case of the compulsory insurance, according to the procedure, provided by the insurance contract.*

***Insurance payment****– is a financial compensation paid by the insurer in the event of the occurrence of an insured eventaccording to the laws on compulsory insurance and insurance contract.*

***Compulsory insurance types*** *– are the types of insurance which list, rules of conducting and terms are defined by the laws of "Civil Code", "On İnsurance Activity", "On Compulsory İnsurance" of Azerbaijan Republic.*

***Voluntary insurance types*** *and relevant insurance rules defined by the insurer taken into account insurance rules which adopted by the insurance supervision body and offered to individuals by type of voluntary insurance which is compulsory for all insurers.*

***Loan investment*** *— monetary funds, issued as a debt for certain amount with or without securitization, subject to repayment of interest (commissioning fees) at a predetermined time (with the right of prolongation of the term) in accordance with the signed contract.*

***Money aggregates*** *– are structure indicators of money supply. This is the type of the money and monetary funds which differ from each other for liquidity level (the ability to be converted into cash quickly). M0 – cash in circulation (cash outside banks, coins, banknotes) , M1 = M0 + checks, demand deposits in manat, ( also, bank debit cards), national currency balances on accounts of organizations, M2 = M1 + time deposits in manat, M3 = M2 + deposits in hard currency.*

***Money emission*** *– issue additional money to circulation.*

***Investment****- is comprised of financial means, as well as material (actual) and intellectual values, used in all kinds of business activity with the aim of income (profit) extraction or for the social benefit.*

***Foreign direct investment -*** *is a capital which placed in foreign enterprises for a long time and provide finance control on their activity.*

## QİYMƏT İNDEKSLƏRİ

**İstehlak qiymətləri indeksi (İQİ)** – orta alıcılıq qabiliyyətli alıcının aldığı məhsulların və istifadə etdiyi xidmətlərin qeydə alınmış məcmusunun dəyərinin ümumi dəyişməsini səciyyələndirən nisbi göstəricidir. Bu göstərici müəyyən dövr ərzində istehlak edilən məhsulların və xidmətlərin dəyişməz qaldığı şəraitdə əhalinin istehlak xərclərinin ümumi məbləğinin dəyişməsini əks etdirir. İQİ-nin başlıca təyinatı istehlak məhsullarının və xidmətlərin qiymət dinamikasının müəyyənləşdirilməsidir. İQİ modifikasiya edilmiş Laspeyres düsturu ilə hesablanır. İndeksin hesablanmasında ölkə xüsusiyyətlərini nəzərə alaraq 520 təmsilçi məhsul və xidmət növü üzrə toplanmış qiymət məlumatlarından istifadə edilir. İstehlak qiymətləri indeksi tərtib edilərkən ev təsərrüfatlarının büdcə müayinələri əsasında müəyyənləşdirilən əhalinin faktiki istehlak xərclərinin bazis dövründə strukturu çəki rolunu oynayır.

İQİ-dən milli hesablar sistemi göstəricilərinin müəyyənləşdirilməsində, ümumi daxili məhsulun son istifadəsinin ən mühüm komponentlərindən olan ev

təsərrüfatlarının son istehlakına çəkilən xərclərin sabit qiymətlərdə hesablanmasında, eləcə də əhalinin real gəlirlərinin və digər göstəricilərin hesablanmasında istifadə olunur.

İstehlak məhsulları və əhaliyə göstərilən ödənişli xidmətlərin qiymət indekslərinin hesablanmasında 2 məlumat mənbəyindən - istehlak səbətinə daxil olan məhsul və xidmətlərin qiymət müşahidəsi və əhalinin son istehlak xərclərinin strukturu ilə bağlı ev təsərrüfatları büdcələrinin tədqiqatından istifadə edilir.

Məhsul və xidmətlərin qiymətlərinin qeydiyyatı yerli statistika orqanları tərəfindən işğal olunmuş ərazilər istisna olmaqla bütün ölkə üzrə aparılır. Müşahidəyə bütün mülkiyyət və təşkilati-hüquqi formalarından olan və reprezentativ seçilmiş ticarət məntəqələri, bazarlar, həmçinin, məhsulların realizə olunduğu və vətəndaşlara xidmət göstərildiyi digər yerlər də daxil edilir. Ticarət məntəqələri müşahidəyə cəlb edilərkən həmin məntəqədə (iaşə obyektində) satılan istehlak məhsullarının (xidmətlərin) müntəzəmliyi, kütləviliyi, ticarət obyektində məhsul (xidmət) çeşidlərinin çox olması, həmçinin yerli və idxal məhsullarının satışının həyata keçirilməsi nəzərə alınır.

İstehlak qiymətlərinin qeydiyyatı ərzaq məhsulları üzrə ayda üç dəfə (on gün intervalı ilə), qeyri-ərzaq məhsulları və əhaliyə göstərilən ödənişli xidmətlər üzrə isə aylıq intervalla üçüncü ongünlükdə qiymət qeydiyyatçıları tərəfindən aparılır. Qiymətlərin qeydiyyatı zamanı məhsulun (xidmətin) adına, yerli və ya idxal məhsulu olduğuna, qiymətinə, ölçü vahidinə və səciyyəvi xüsusiyyətlərinə (markası, modeli, məhsulun tanınmasına imkan verən digər xüsusiyyətlər) dair məlumatlar real vaxt rejimində planşet tipli kompüterlər vasitəsilə Dövlət Statistika Komitəsinin elektron məlumat bazasına birbaşa daxil edilir.

**Sənaye məhsullarının istehsalçı qiymətləri indeksi (SQİ)** – sənaye müəssisələri tərəfindən istehsal olunan və satılan sənaye məhsullarının qiymətlərinin səviyyəsi və dinamikasını xarakterizə edir.

Sənaye məhsullarının istehsalçı qiymətlərinin müşahidəsi İqtisadi Fəaliyyət Növləri Təsnifatının Mədənçıxarma sənayesi, Emal sənayesi, Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, Su təchizatı; tullantıların təmizlənməsi və emalı seksiyalarına uyğun olaraq aparılır. İstehsalçı qiymətinə əlavə dəyər vergisi, aksizlər və s. vergi ödəmələri, məhsulun maya dəyərinə aid olmayan daşınma xərcləri aid edilmir. Sənaye məhsullarının istehsalçı qiymət indeksləri 2000-ci ildən etibarən hər ay hesablanır.

**Kənd təsərrüfatı, balıqçılıq və meşə təsərrüfatı məhsullarının istehsalçı qiymətləri indeksi (KTQİ)** – kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları tərəfindən satılan kənd təsərrüfatı məhsullarının qiymətlərinin səviyyəsi və dinamikasını xarakterizə edir. Kənd təsərrüfatı məhsullarının qiymətlərinin müşahidəsi kənd təsərrüfatı müəssisələrinin, fərdi sahibkarların, ailə kəndli və ev təsərrüfatlarının seçmə şəbəkəsi üzrə həyata keçirilir.

Kənd təsərrüfatı, balıqçılıq və meşə təsərrüfatı məhsullarının istehsalçı qiymət indeksi ölkənin 54 rayonunda istehsal olunan kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətlərinin müşahidəsi əsasında 2003-cü ilin yanvar ayından etibarən hesablanır.

**Nəqliyyat, poçt və rabitə xidmətlərinin qiymət indeksi** - nəqliyyatda yükdaşıma və sərnişindaşıma qiymətləri indeksini, poçt və kuryer xidmətlərinin qiymət indeksini və rabitə xidmətlərinin qiymət indeksini özündə birləşdirir.

**Tikinti-quraşdırma işlərində istehsalçı qiymət indeksi** - "Tikinti" iqtisadi fəaliyyət növünü xarakterizə edən qiymət statistikası göstəricilərindən biri hesab olunur və "tərkib elementləri" metodu ilə hesablanır. Tikinti-quraşdırma işlərində qiymətlərin müşahidəsi yerüstü, yol və körpü tikintisində həyata keçirilən tikinti işləri (xidmətləri) üzrə aparılır.

**İxrac və idxal olunan məhsulların qiymət indeksləri** - xarici ticarət fəaliyyətinin təhlilində istifadə edilən mühüm göstəricidir. İdxal və ixrac olunan məhsulların qiymət indeksi idxal və ixrac olunan məhsulların qiymətlərinin dəyişməsinin daxili iqtisadiyyatın vəziyyətinə təsirini qiymətləndirməyə imkan verir və eləcə də, ümumi daxili məhsulun hesablanması zamanı idxal-ixrac əməliyyatlarında faktiki həcm deflyatoru rolunu oynayır.

# *PRICE INDICES*

***Consumer price index (CPI)*** *- is a relative index that characterizes general modification of the cost of bought goods and used services by an average consumer. This indicator reflects modification of total amount of consumer expenses of the population while consumed goods and services remain invariable during specified time. The main destination of CPI is to define the price dynamics of consumer goods and services. It is calculated based on modified Laspayres formula. Prices collected according to 520 representative goods and services which consider national peculiarities of the republic, are used in calculation of CPI. In compilation of CPI, the structure of actual consumer expenses of the population serves as a weights in the base period defined based on HBS.*

*CPI is used for determining indicators of system of national accounts, calculation of expenditures (in constant prices) of final consumption of households that is one of the most important components of GDP's final use, as well as calculation of real income and other indicators.*

*In calculation of price indexes of consumer goods and services are used 2 data sources: price monitoring of products and services included in the consumer basket and household budget survey for the structure of actual consumer expenses of the population.*

*Registration of prices of products and services is carried out by local statistical offices throughout the country, except occupied territories. The monitoring includes selected representative trading points, markets and organizations of all ownership and legal forms, as well as places where products are being sold and rendered paid services to the population. In the process of monitoring the trading points, the regularity, massiveness, assortment of consumer products (services) sold at that point (catering), as well as the sale of both domestic and imported products are taken into account.*

*Consumer prices are registered three times in a month (each 10 days) for food products and once a month (3rd 10-day) for non-food products and paid services rendered to population by price registrants. Information about name, origin (local or imported), price, measurement unit and specific features (brand, model, other features allowing the product to be recognized) of the product collected during the registration of prices are entered directly to the electronic data base of the State Statistical Committee via tablet computers in real time mode.*

***Producer price index (PPI) of industrial goods - Producer price index of industrial goods*** *– characterizes level and dynamic of prices of industrial products produced and sold by industrial enterprises.*

*Observation of the prices of industrial products is carried out according to Mining industry, Manufacturing industry, Production, distribution and supply of electricity, gas and steam, Water supply, treatment and processing of wastes sections of Classification of Economic Activities. Producer price does not include value-added, excise and etc. taxes and transportation costs not related to the cost of the product. Producer price indicies of industrial goods are calculated every month since 2000.*

***Produce price index of agricultural, fishery and forestry products** – characterizes level and dynamic of prices of agricultural products sold by agriculture enterprises, private owners, family-peasant farms and households. Observation of the prices of agricultural products is carried out based on sample of agriculture enterprises, private owners, family-peasant farms and households.*

*Producer price index of the agriculture, fishery, and forestry is calculated on the basis of the review of the producer prices of the agricultural products produced in the 54 regions of the country since January 2003.*

***Price index of transport, postal and communication services** – comprise cargo and passenger transportation rates index, postal and courier rates index and communication rate index.*

***Producer price index in construction and installation works** – is considered as one of the indicators of price statistics characterizing "Construction" economic activity, and calculated by method of "component elements". The price observation in construction and installation works is conducted by construction works (services) in overground, road and bridge construction.*

***Price indices of imported and exported goods** -is one of the main indicators used for analysis of foreign trade activity. Price indices of imported and exported goods estimation of the impact of price changes of imported–exported goods on internal economic situation and play the role as actual volume deflator on import-export operations during GDP calculation.*

# ENERGETIKA

**Enerji balansı -** baza dövrü ərzində ölkəyə daxil olan, çıxan və istifadə olunan bütün enerji məhsulları üzrə məlumatların toplanması və əlaqələndirilməsi üçün uçot göstəriciləri sistemidir. Belə bir balans ümumi uçot vahidində enerjinin bütün formalarını mütləq ifadə edir və enerjinin çevrilmə proseslərinə çəkilən xərclər və bu proseslərlə məhsul buraxılışı arasındakı əlaqəni əks etdirir.

**Balansın quruluşu**. Enerji balansı - ayrı-ayrı energetika məhsulları üzrə (xam neft, təbii qaz, elektrik enerjisi və s.) əmtəə balanslarını özündə birləşdirməklə onların neft ekvivalentinin tonu (NET) enerji vahidi ilə ifadə olunmuş kompleks məcmuəsidir. 1 NET 41,868 Qiqacoula, yaxud 0,041868 Teracoula, 1 Teracoul 1000 Qiqacoula bərabərdir. Enerji balansının tərtibindən əvvəl balansda göstərilən bütün enerji məhsullarının əmtəə balansları tərtib edilir.

**“İlkin enerji məhsullarının istehsalı”**. Bütün enerji məhsulları **ilkin** və **təkrar** (ikinci) məhsullara bölünür. Təbii resurslardan birbaşa alınan və ya ayrılan məhsullar ilkin (xam neft və təbii qaz, həmçinin, külək, günəş və su elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi və s.), ilkin enerji məhsulu olmayan, lakin ilkin məhsullardan istehsal edilən enerji məhsulları (neft emalı məhsulları, istilik elektrik stansiyalarında istehsal olunan elektrik enerjisi və s.) təkrar məhsullar adlandırılır.

**“İdxal” və “İxrac”.** İdxal və ixrac həcmləri – Azərbaycanda yaşayan şəxslər və ya fəaliyyət göstərən müəssisələr tərəfindən həyata keçirilən əqdlərin nəticəsində ölkəyə daxil olan və ölkədən çıxarılan məhsulların miqdarıdır. Yüklərin gömrük orqanlarında rəsmiləşdirilməsinin baş verib-verməməsindən asılı olmayaraq, idxal-ixrac əməliy-yatları məhsulun ölkənin milli sərhədlərini keçmə anında baş vermiş hesab edilir. Ölkə ərazisindən tran-zitlə keçən enerji məhsulları (elektrik enerjisi istisna olmaqla) idxal-ixrac göstəricilərində nəzərə alınmır. Balansda ixrac göstəriciləri « - » işarəsi ilə qeyd edilir.

**“Beynəlxalq reyslər üzrə yanacaq çənlərinə doldurulmuşdur”**. Burada, hansı ölkədə qeydiyyatdan keçməsindən asılı olmayaraq beynəlxalq reysləri həyata keçirən gəmi və təyyarələrin yanacaq çənlərinə Azərbaycanda doldurulmuş yanacağın miqdarı göstərilir.

**“Ehtiyatların dəyişməsi”.** Enerji balansının tam bitmiş hesabat dövrü üzrə hesablanan elementlərindən (istehsal, istehlak, idxal və s.) fərqli olaraq ehtiyatların səviyyəsi müəyyən vaxt anına ölçü-lür. Ehtiyatların dəyişməsi hesabat dövrünün əvvəlində olan ehtiyatlardan hesabat dövrünün sonunda olan ehtiyatları çıxmaqla hesablanır. Hesabat dövrünün sonunda ehtiyatlar artdıqda rəqəm « - » işarəsi ilə yazılır.

**Ümumi enerji təchizatı -** enerji məhsulları ilə təchiz olunan mənbələrin məlumatlarının toplanılması hesabına formalaşır.

**"Statisik fərq"-** ümumi enerji təchizatı ilə bütün energetika məhsullarının istehlakı arasında alınan fərqdir. Ümumi enerji təchizatının miqdarından enerjinin transferləri, transformasiya sektorunun prosesləri, energetika sektorunun daxili istehlakı, itkilər və son istehlakın cəmi çıxıldıqdan sonra yaranan fərqdir. Statistik fərqin qiyməti "-" işarə ilə də ola bilər.

**Transferlər (yerdəyişmələr)** - praktiki təsnifetmə və enerji məhsulunun istifadəsi və ya müəyyən olunmasında dəyişikliklər səbəbindən yaranan təqdimat məsələlərinin öhdəsindən gəlmək məqsədilə enerjini sütunlar arasında hərəkət etdirmək üçün əhəmiyyətli olan statistik üsuldur.

**"Transformasiya sektorunun prosesləri".** Bu sətirdə istilik və elektrik enerjisinin istehsalı üçün yandırılmış yanacaq da daxil olmaqla ikinci yanacaq məhsullarının istehsalına sərf edilmiş yanacağın miqdarı və həmin transformasiya (çevrilmə) nəticəsində əmələ gələn ikinci energetika məhsullarının miqdarı əks etdirilir. Bu zaman transformasiyaya uğramış ilkin enerji məhsulları "-" işarə ilə göstərilir.

**"Energetika sektorunun daxili istehlakı".** Balansın bu hissəsi energetika sektoruna aid olan müəssisələrdə istehlak olunmuş enerji məhsullarının miqdarını və ya xüsusi sərfiyatını göstərir. İstehlak olunmuş enerji məhsulları digər enerji məhsullarına çevrilmədən uçotdan silinir. Energetika sektoruna aid olan müəssisələrin fəaliyyətini təmin edilməsi üçün istehlak edilmiş enerji məhsulları transformasiya proseslərində iştirak etmir.

**"İtkilər".** Enerji məhsullarının istifadəsi, nəqli, bölüşdürülməsi (elektrik, qaz şəbəkələri və s.) zamanı baş vermiş itkilər və digər itkilər bu sətirdə öz əksini tapır. Elektrik enerjisinin transformatorlarda baş verən itkiləri də bu sətirə daxil edilir. Qazın nəqli və bölüşdürülməsi zamanı itkiləri dedikdə qazın uzaq məsafəyə nəqli prosesində baş verən itkilər, rayondaxili (şəhərdaxili) bölüşdürücü şəbəkələr vasitəsilə qazın paylanması zamanı baş verən itkilər nəzərdə tutulur. Neft emalı prosesində itkilər – neft emalı zavoduna daxil olmuş məhsulun tam həcmi ilə ümumi hazır məhsul istehsalı arasındakı fərqdən ibarət olmaqla əsasən neft məhsullarının təbii əksilməsinin nəticəsində baş verir. Belə itkilər "digər itkilər"ə aid edilir.

**"Son istehlak".** Enerjinin son istehlakçılarına verilən enerji məhsulları son istehlak adlandırılır. Satış üçün nəzərdə tutulmuş elektrik və istilik enerjisinin istehsalına sərf edilmiş enerji məhsullarının miqdarı son istehlak daxil deyildir. Müxtəlif yanacaqların son istehlakı onlardan qızdırılma və qeyri-energetika məqsədli istifadəni nəzərdə tutur. Son istehlak sektorunda energetika məhsulları uçotdan tamamilə çıxır, yəni transformasiya nəticəsində bu və ya digər energetika məhsuluna çevrilmir. Bu məhsullar enerjinin transformasiyası (çevrilməsi) prosesinə daxil olmur və onlardan müəssisələrin və ev təsərrüfatlarının müxtəlif fəaliyyətini təmin etmək üçün istifadə edilir. Son istehlak sektoru iki – a) energetika məqsədli son istehlak və b) qeyri-energetika məqsədli son istehlak altbölmələrindən ibarətdir

və onun məlumatları 7.1 və 7.2 sətirlərin məlumatlarının toplanması ilə müəyyənləşdirilir.

**"Enerji məqsədli son istehlak"** üç iri qrupun – sənaye və tikinti, nəqliyyat və iqtisadiyyatın digər sahələri üzrə enerjinin son istehlakı haqqındakı məlumatlarından formalaşır.

**"Qeyri-enerji məqsədli son istehlak".** Bir çox enerji məhsullarından qeyri-energetika məqsədləri üçün istifadə edilə bilər. Misal üçün, sürtkü yağlarından mühərriklərdə, bitumdan evlərin damı və yol örtüyündə, uayt-spirit və digər sənaye əridicilərindən boya, parafinlərdən şam, neft koksundan elektrod istehsalında istifadə edilir.

## ***ENERGY***

***Energy balance****- is an accounting indicator system for data collection and coordination on all energy product system that got in and out, used in the country during the base period. Such balance absolute expresses all forms of the energy in the total unit of account and reflect costs for energy transformation and the relationship between these and production processes.*

***Structure of the balance.*** *Energy balance is constructed from the commodity balances of different energy products such as crude oil, natural gas, electric power and etc., which expresses tons of oil equivalent for their balances. One tone oil is equivalent to 41,868 gigajoule, or 0,041868 terajoules, one terajoule is equal to 1000 gigajoule. Commodity balances of all energy products included in balance are compiled before compilation of the energy balances.*

***"Primary productions".*** *All energy products divide into* ***primary*** *and* ***secondary*** *products. Energy commodities extracted or captured directly from natural resources (crude oil, natural gas, electric power produced in wind, solar, hydroelectric power station and etc.) are termed primary products and all energy commodities which are not primary but produced from primary commodities (oil products, electric power produced in thermoelectric power station and etc.) are termed secondary commodities.*

***"Import" and "Export".*** *The volume of import and export is a quantity of products that are imported to the country and exported from the country in the result of activities realized by entities living in Azerbaijan or enterprises functioned in the country. Import-export operations are carried out in the national borders of the country in spite of the fact that cargo was officially registered by custom agencies or not. The energy products passed from the country by transit (excluding electric power) are not considered in the import-export indicators. The export data in the balance is indicated by « - ».*

***International bunkers".*** *This data includes quantity of fuel filled in Azerbaijan for ships and civil aircrafts realized international travel irrespective of the country of registration.*

***"Stock changes".*** *Differ from elements of the complete energy balance for the reporting period (production, consumption, imports, etc.) as opposed to the level of resources is measured by a certain time. Changing of stocks is calculated by means of deducting of resources at the beginning of reporting period from resources at the end of the reporting period. A stock draw is an addition to supply and so will be entered with a « - » sign.*

***Total energy supply*** *is formed on the basis of collecting data sources equipped with energy products.*

***"Statistical difference"*** *is the difference between the total energy supply and the consumption of all energy products. It is the difference when the sum of energy transfer, the processes of transformation sector, consumption within the energy sector, losses and final consumption is deducted from the amount of total energy supply. The price of Statistical difference can indicate with the sign "-".*

***"Transfer".*** *Transfers, the first line of the middle block, is essentially a statistical device to move energy between columns to overcome practical classification and presentation issues resulting from changes in use or identity of an energy product.*

***"Transformation processes".*** *This line amount of spent fuel in the fuel production and the amount of second energy products generated from the result of transformation (conversion) including burned fuel for the production of heating and electric power. Transformed primary energy products is shown with the "-" sign.*

***"Domestic consumption of the energy sector".*** *This part of the balance reflects quantity of the energy products consumed by fuel-energy enterprises or special consumption. Consumed energy products are taken off the books without transformation into other energy products. Energy products consumed in fuel-energy enterprises are used for provision of the activities of these enterprises, and energy products don't participate in transformation processes.*

***"Losses".*** *this line reflects the losses of energy commodities during their distribution to the points of use. Losses occurred at transformer is also included in this line. Losses in transportation and distribution of gas refers to losses during tranport of gas over long distance, losses during distribution of gas through intraregional distributed networks. Losses during oil processing – happens in the result of decrease mostly naturally of the oil products with consisting of difference between production of general ready product by whole volume of product which has entered the oil refinery plant. Such losses concerning to "other losses".*

***"Final consumption"*** *is energy products given to final consumption of energy. Fuels used for the production of electricity and heat for sale, as well as the*

*quantities of energy produced, are excluded from final consumption. Final consumption of different fuels intends use of heating and non-energy. Energy products in the final consumption sector completely go out from calculation, i.e. not transforming to this or other energy product. These products not included to the process of energy transformation and it is used for to provide different activities of households. The End-Use Section consists of two (a) final targets for energy purposes and (b) final consumption subsections for non-energy purposes, and its data are determined by collecting data from lines 7.1 and 7.2.*

***"Final energy consumption"*** *is formed from data on final consumption of energy based on 3 groups: industry, transport, and other branches of economy.*

***"Final non-energy consumption".*** *A number of fuels may be used for non-energy purposes. For example, lubricants are used in engines, bituminous roofs and road surfaces, ointments and other industrial solvents, paraffin candles, and petroleum coke is used in the production of electrodes.*

- - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - - -

# SƏNAYE

**Dəyər ifadəsində sənaye məhsulunun həcmi.** Müəssisənin sənaye məhsuluna hesabat dövründə istehsal edilmiş hazır məhsulun və kənara satılmış yarımfabrikatların (həm özünün xammal və materiallarından və həm də sifariıçinin xammal və materiallarından) hamısının dəyəri, habelə kənar müəssisələrin və yaxud qeyri-sənaye müəssisələrinin və özünə tabe olan təşkilatların sifarişi üzrə yerinə yetirilmiş sənaye xarakterli işlərin dəyəri daxil edilir. Sənaye müəssisəsinin məhsuluna həmin müəssisənin öz daxilində sənaye-istehsal ehtiyacları üçün istifadə edilmiş öz məhsulunun dəyəri daxil edilmir.

**Sənaye məhsulunun həcminin indeksi** dəyər ifadəsində sənaye məhsulu həcminin dəyişməsi dinamikasını xarakterizə edir. 2001-ci ilin yanvarından başlayaraq sənaye statistikasında tətbiq edilən yeni metodologiyaya görə, artım (azalma) templəri məhsulun natura ifadəsində istehsalına əsaslanmaqla yanaşı aqreqasiya zamanı çəkilər sistemində dəyər ifadəsində "məhsul buraxılışı" göstəricisi deyil, beynəlxalq praktikaya uyğun olaraq "əlavə dəyər" göstəricisi əsasında hesablanır.

**Sənaye istehsal heyətinin orta siyahı sayı,** yəni hesabat ayı ərzində işçilərin orta aylıq sayı hesabat ayının bütün təqvim günlərində (bayram; qeyri-iş günləri və istirahət günləri də daxil edilməklə) siyahı üzrə gündəlik mövcud işçilərin sayını toplamaq və alınmış nəticəni ayın təqvim günlərinin sayına bölmək yolu ilə hesablanır.

**Sənayedə orta aylıq əmək haqqı.** Fəhlə və qulluqçuların orta aylıq əmək haqqı cari dövr üçün əmək haqqı fondunun fəhlə və qulluqçuların orta siyahı sayına bölmək və alınmış nəticəni hesabat dövründəki ayların sayına bölmək qaydasında hesablanır.

**Sənaye müəssisələri üzrə ilin əvvəlinə və axırına mövcud olan əsas fondlar.** Əsas fondların tərkibinə daxil edilir: binalar, tikililər, ötürücü qurğular, işçi və güc maşınları, ölçü və nizamlayıcı alət və qurğular, laboratoriya avadanlığı, hesablama texnikası, nəqliyyat vasitələri, cihazlar, sənaye müəssisələrinin müxtəlif növlərindən olan əsas fondlar.

**Fondla silahlanma.** Əməyin fondla silahlanması sənaye-istehsal təyinatlı əsas fondların orta illik dəyərinin sənaye-istehsal təyinatlı işçilərin orta siyahı sayına nisbəti kimi hesablanır. Bu göstəricinin hesablanması zamanı ev təsərrüfatlarında sənaye məhsulu istehsalının dəyəri, habelə hüquqi şəxs yaratmadan fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işinin qiymətləndirilməsi də nəzərə alınır.

## *INDUSTRY*

***Value of industrial production:*** *includes the total value of finished and semi-finished products manufactured during the reporting period, as well as the value of products that were ordered but are not yet finished.*

*The average number of industrial personnel is calculated by multiplying the average monthly number of employees during the reporting month with the number of calendar days in the reference month (holidays, non-working days and weekends are included).*

***Average monthly wages and salaries in industry*** *are calculated by dividing wages and salary fund of the current period by the average number of employees and dividing the result by the months of the reporting year.*

***Fixed assets available in an enterprise at the beginning and the end of the year*** *include: buildings, constructions, transmission installations, work- and power machines, measuring and regulating tools and equipment, laboratory equipment, computer and calculation equipment, means of transport, tools, and other fixed assets of different types.*

## KƏND, MEŞƏ VƏ BALIQÇILIQ TƏSƏRRÜFATI

**Kənd təsərrüfatı müəssisəsi** – mülkiyyətində və ya təsərrüfatının aparılmasında torpağı, həmçinin digər xüsusiləşdirilmiş əmlakı olan və bitkiçilik və heyvandarlıq məhsulları istehsalını, kənd təsərrüfatına xidməti həyata keçirən hüquqi şəxsdir.

**Ailə kəndli təsərrüfatı** – ailə üzvlərinin və onlarla birgə fəaliyyət göstərən şəxslərin fərdi əməyi və mülkiyyətində və ya icarəsində olan əmlak əsasında hüquqi şəxs yaratmadan kənd yerlərində istehsal və digər təsərrüfat fəaliyyətini (məhsulların istehsalını, emalını, saxlanmasını, daşınmasını və satılmasını) birgə həyata keçirən təsərrüfatdır.

**Fərdi sahibkar** – hüquqi şəxs yaratmadan təsərrüfat fəaliyyəti ilə məşğul olan, fəaliyyət göstərdiyi yer üzrə vergi orqanlarında dövlət qeydiyyatından keçmiş və qeydiyyatdan keçməsi haqqında şəhadətnamə almış vətəndaşdır (fiziki şəxsdir).

**Kənd təsərrüfatının ümumi məhsulu** – özündə hesabat ilinin cari (faktiki) qiymətləri ilə bitkiçilik və heyvandarlıq məhsullarının dəyərini əks etdirən kənd təsərrüfatı istehsalı həcminin ümumiləşdirici göstəricisidir.

Bitkiçilik məhsullarına hesabat ilində yığılmış xam məhsulların: taxıl, texniki bitkilərin məhsulları (şəkər çuğunduru, pambıq, tütün və s.), kartof, tərəvəz və ərzaq üçün bostan məhsulları, meyvə və giləmeyvə, yem bitkiləri (yemlik kökümeyvəlilər, birillik və çoxillik otlar, yığılmış quru ot, yaşıl kütlə və s.), efir yağlı bitkilər, gül, kənd təsərrüfatı bitkiləri və çoxillik əkmələr toxumu və əkin materiallarının dəyəri, çoxillik əkmələr salınması və barvermə dövrünə qədərki becərmə xərcləri, ilin əvvəlindən axırına kimi bitkiçilikdə bitməmiş istehsal xərcləri daxil edilir.

Heyvandarlıq məhsullarına kənd təsərrüfatı heyvanları və quşlarının saxlanması və təsərrüfatdaxili istifadəsi zamanı alınmış xam məhsulların (süd, yun, yumurta və s.) dəyəri, satılmış mal-qara və quşların dəyəri, cavan və kökəlmədə olan heyvanların il ərzində yetişdirilməsi ilə əlaqədar çəki artımının dəyişməsi dəyəri, habelə baramaçılıq, arıçılıq, və s. heyvanların məhsullarının dəyəri daxildir.

Kənd təsərrüfatı məhsullarının fiziki həcm indeksinin hesablanması üçün müqayisəli qiymətlər əsasında onların ümumi istehsal həcmi göstəricilərindən istifadə edilmişdir.

**Kənd təsərrüfatına yararlı torpaq sahəsinə** kənd təsərrüfatı məhsulları istehsalı məqsədilə mütəmadi istifadə olunan torpaqlar daxil edilmişdir.

Kənd təsərrüfatı müəssisələrində **kənd təsərrüfatı məhsullarının ümumi yığımı** göstəricisi əsas, təkrar və cərgələrarası əkinlərdən məhsul yığımına dair statistik hesabatların məlumatlarına əsasən müəyyən edilmişdir; fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə isə məlumatlar bu təsərrüfatlardakı əkin sahələri və məhsul yığımına dair uçot və seçmə müayinə məlumatlarının əsasında hesablanmışdır.

**Mal-qaranın baş sayı** statistik uçot və hesabat məlumatlarına əsasən müəyyən edilmişdir.

Heyvandarlıq məhsullarının istehsalı barədə məlumatlar kənd təsərrüfatı müəssisələri üzrə statistik hesabatlara, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatları üzrə isə aparılan seçmə müayinə məlumatlarının əsasında müəyyən edilmişdir.

**Ət istehsalına** bütün növ mal-qara və quşların əti, piyi və içalatı daxil edilmişdir. Məlumatlara həm sənaye üsulu ilə və həm də təsərrüfatdaxili kəsilmiş mal-qara və quşlar daxil edilmişdir.

**Süd istehsalı** inək, camış, qoyun və keçilərdən faktiki süd sağımını xarakterizə edir; bura satılmış və təsərrüfatlarda istifadə edilmiş, balaların içirdilməsinə və sair məqsədlərə sərf olunmuş südün hamısı daxildir.

**Yun istehsalı**, satılması və təsərrüfatda başqa məqsədlər üçün istifadə edilməsindən asılı olmayaraq, qoyun və keçilərdən qırxılmış bütün yunları, keçi qəzilini, habelə dəvə yununu əhatə edir. Gön emalı sənayesində dəridən qırxılmış yun bu göstəriciyə daxil edilməmişdir. Bütün yunlar fiziki çəkidə, qırxımdan sonra yuyulmamış halda uçota alınmışdır.

**Yumurta istehsalı,** cücə istehsalına (inkubasiyaya və s.) istifadə edilənlər də daxil olmaqla, bütün növ ev quşlarından alınmış yumurtanı əks etdirir.

Kənd təsərrüfatı müəssisələrində ilin əvvəlinə mövcud olan hər baş ana maldan (inək və camışdan) orta süd sağımı hesablanarkən kökəlmədə və ətlik istiqamətli sürüdə olan ana malın baş sayı və onlardan sağılmış süd nəzərə alınmamışdır.

Satılmış məhsulların qiymətinə kənd təsərrüfatı müəssisələri tərəfindən bütün kanallar üzrə tədarük və istehlak kooperasiyası təşkilatlarına satılmış, həmçinin

bazar və xüsusi mağazalarda, iaşə müəssisələrində satılmış və mal mübadiləsi qaydasında dəyişdirilmiş və s. kanallarla satılmış məhsulları əks etdirir.

**Məhsulun rentabelliyi** – məhsul və ya xidmətlərin satışından əldə olunan mənfəətin onların istehsalı və satışına çəkilmiş xərcə nisbətidir.

## *AGRICULTURE, FORESTRY AND FISHERY*

***Agricultural enterprise*** *is a legal entity that has land or specialized property for farming produces plant-growing and livestock products and serves to the agriculture.*

***Family farming*** *is a farm that implements joint production and other economic activities (producing, processing, storage, transportation and sale of products) based on labor of family members and co-operating persons and personal property held or rented in rural areas without creating a legal entity.*

***Private owner*** *is a citizen (physical entity), who has been engaged in farming activity without creating a legal entity, has been registered in the tax authorities on the place of activity and has received a certificate of registration.*

***Gross output of the agriculture*** *– is a generalized indicator of agricultural production volume reflecting the value of plant-growing and livestock products with actual prices of the reporting year.*

*Crop production includes the harvest of raw products in reporting period: cereals, industrial crops (sugar beet, cotton, tobacco, etc.) potatoes, vegetables, watermelons and melons, fruits and berries, fodder (fodder root crops, harvested hay, green mass from temporary and permanent grassland etc), volatile oil plants, flowers, the value of seeds and planting material for permanent crops, expenditures for planting of permanent crops and growing until the fruit-bearing age, expenses on work in progress from beginning till the end of the year.*

*Livestock - breeding products include the value of breeding on livestock and poultry, the value of the intra-household use (milk, fur, eggs and so on.), value of raw products generated and sold livestock and poultry, value on changing of increase in weight on breeding of cattle during the year as well as value of cattle products on silkworm breeding, bee-keeping and so on.*

*Total volume indicators at comparative prices are used when calculating volume indices of agricultural products.*

***Cultivated area*** *includes land regularly used for the production of agricultural products.*

*Indicator of* ***gross harvest of agricultural products*** *in agricultural enterprises is calculated on the base of statistical data on harvest from main, repeated and intercrop plantings. Information on private households (including peasant farms) is*

*calculated on the base of data from records of cultivated area and sample surveys on average yield.*

*The total number of* ***livestock*** *is determined on the base of statistical registration and data records.*

*Animal production is calculated on the base of statistical reports; data on private households and peasant farms are based on results of sample surveys.*

***Meat production*** *comprises meat of all kinds of livestock as well as fat and offal. This information comprises meat of livestock slaughtered by industrial methods and in the households.*

***Milk production*** *comprises actual milk yield from cows, buffaloes, sheep and goats, it includes milk sold and used by holdings for feeding of animals and other purposes.*

***Wool production*** *includes all actually sheared wool from sheep and goats, regardless of its sale or use by holdings. Wool sheared from sheepskin by manufacturing industry is not included here. All wool is registered in physical weight after shearing and without being washed.*

***Production of eggs*** *reflects eggs received from all kinds of poultry including eggs used for reproduction (incubation etc.).*

*When calculating average milk yield from available livestock in agricultural enterprises (cows and dairy buffaloes) milk yield and number of heads being on fattening and cows of meat direction was not considered.*

*Volume of products sold reflects sales by agricultural enterprises to purchasing organisations and consumption cooperatives, as well as on markets, via own shops, caterings, in the result of product exchange and by other channels.*

***Product profitability*** *is the ratio of the profit gained from the sale of goods or services to the expense of their production and sale.*

# TİKİNTİ

**Əsas kapitala vəsaitlər** - bütün növ əsas vəsaitlərin alınmasına, yaradılmasına və təkrar istehsalına yönəldilmiş xərclərin məcmusudur. Əsas kapitala yönəldilmiş investisiyalar tikinti-quraşdırma işlərinə, quraşdırılması tələb olunan və ya tələb olunmayan, tikili və obyektlərin smetasına daxil olan və ya daxil olmayan maşın və avadanlıqların alınmasına və quraşdırılmasına, işçi və məhsuldar heyvanların alınmasına, çoxillik əkmələrin və meşə zolaqlarının salınmasına, layihə-axtarış və sair işlərin yerinə yetirilməsinə sərf edilən xərclərin cəmindən ibarətdir. Əsas kapitala yönəldilmiş investisiyaların maliyyələşdirmə mənbələri müəssisə və təşkilatların öz vəsaitləri, büdcə vəsaitləri (dövlət büdcəsi və ya yerli büdcələr), əhalinin şəxsi vəsaitləri, bank kreditləri, büdcədənkənar fondların vəsaitləri və digər vəsaitlər ola bilər.

**Tikinti-quraşdırma işlərinə sərf edilən vəsait** - yeni tikilən, yenidən qurulan, genişləndirilən bütün növ bina və qurğuların layihə-smeta sənədlərində yerinə yetirilməsi nəzərdə tutulmuş tikinti işlərinə və tikintinin smetasına daxil olan və daxil olmayan avadanlıqların quraşdırılması işlərinə sərf edilmiş investisiyaların yekunundan ibarətdir.

**İnvestisiyanın texnoloji strukturu -** investisiyanın texnoloji strukturuna bütün növ tikinti-quraşdırma işlərinin həcmi, tikintinin smeta dəyərinə daxil edilən və daxil edilməyən maşın və avadanlıqların, alət və inventarların alınmasına çəkilən xərclər və sair investisiya xərcləri aid edilir.

**Əsas fondlar -** əsas fondların tərkibinə tikintisi başa çatdırılan və hesabat dövründə istifadəyə verilən bina və qurğuların, bütün növ nəqliyyat vasitələrinin, rabitə vasitələrinin, kənd təsərrüfatı, ticarət, iaşə müəssisələrinin, mənzil-kommunal, təhsil, mədəniyyət, səhiyyə və eləcə də iqtisadiyyatın bütün digər sahələri üzrə vəsaitlərin, tikintinin smetasına daxil edilən və edilməyən, quraşdırılması tələb olunan və olunmayan istifadəyə verilmiş avadanlıqların, maşınların və bütün növ nəqliyyat vasitələrinin dəyəri və habelə əsas fondların tərkibinə daxil edilən digər növ xərclər daxildir.

**İstehsal gücləri -** hesabat dövründə istifadəyə verilmiş istehsal gücləri, yaşayış və sosial-mədəni obyektlər haqqındakı məlumatlar sifarişçı və podratçı təşkilatların müvafiq hesabatlarında Dövlət Komissiyasının təsdiq etdiyi qəbul aktına əsasən göstərilir.

**Məhsul istehsalı obyektlərinin tikintisinə -** sənaye, kənd təsərrüfatı**,** meşə təsərrüfatı, balıqçılıq və tikinti fəaliyyət sahəsi obyektlərinin inşasına yönəldilmiş vəsaitin həcmi daxildir.

**Xidmət obyektlərinin tikintisinə -** ticarət, nəqliyyat və anbar təsərrüfatı, informasiya və rabitə, daşınmaz əmlak, təhsil, səhiyyə, istirahət, əyləncə, incəsənət və digər xidmət sahələri obyektlərinin inşasına yönəldilmiş vəsaitin həcmi daxildir.

**Əsas kapitala yönəldilmiş xarici vəsaitlər -** xarici sərmayədarlar tərəfindən yeni tikintiyə, yenidənqurma və genişləndirmə üzrə tikinti işlərinə, maşın və avadanlıqların əldə edilməsinə sərf edilən investisiyalar aiddir. Buraya həmçinin tikinti işlərində istifadə edilmiş xarici kreditlər, qrantlar və humanitar yardımlar hesabına istifadə edilmiş investisiyalar da daxildir.

**Podrat müqavilələri ilə yerinə yetirilən tikinti işlərinin həcminə** - tikinti müəssisələri ilə tikinti işlərinin həyata keçirilməsini maliyyələşdirən sifarişçi müəssisə və təşkilatlar arasında bağlanmış müqavilələr əsasında tikinti müəssisələrinin öz gücləri ilə yerinə yetirdikləri bütün növ tikinti işlərinin və xidmətlərin dəyəri aiddir. Bu işlərə tikinti-quraşdırma (yeni tikinti, yenidənqurma, genişləndirmə), əsaslı təmir, cari təmir və digər işlərin və xidmətlərin dəyəri daxildir.

**İstifadəyə verilmiş yaşayış evlərinin ümumi sahəsi -** vətəndaşların yaşayış sahəsində yaşaması ilə əlaqədar onların məişət və digər ehtiyaclarının ödənilməsi üçün nəzərdə tutulan yardımçı sahələrin (balkon və ya eyvanlar istisna olmaqla) sahəsi daxil olmaqla həmin yaşayış sahəsinin bütün hissələrinin sahəsinin məcmusundan ibarətdir.

**Yaşayış evlərində mənzillər -** bir və ya bir neçə otaqdan, habelə yaşama ilə əlaqədar məişət və digər ehtiyacların ödənilməsi üçün nəzərdə tutulmuş yardımçı sahələrdən ibarət, çoxmənzilli binanın ümumi istifadədə olan sahələrinə birbaşa daxil olmaq imkanını təmin edən strukturca ayrıca sahəsi mənzil hesab edilir.

## *CONSTRUCTION*

***Investments to fixed capital** - is the total sum of expenditures for purchasing, formation and reproduction of fixed assets. Investments directed to fixed capital cover total sum of expenditures for building and assembly jobs, purchasing of machinery and equipments, installation of which is required or not and included or not in budget of buildings and establishments, as well as purchasing plough cattle, planting perennial plants and forests, realization of development works. Financial sources of investments directed to fixed capital may be own funds of enterprises and organizations, budgetary funds (state budget and local budgets), private funds of population, banking credits, resources of out of budget funds and other resources.*

***Funds spent for building and assembly jobs** are sum-total of investments directed to installation of equipments included or not in budget and implementation of which foreseen in related documents with respect to all types of newly constructed and reconstructed buildings and installations.*

***Technological structure of investments** reflects expenditures and investments for purchasing of machinery and equipments, tools and inventories included or not in budget of construction as well as volume of all building and assembly jobs.*

***Fixed assets** include value of completed and introduced into use buildings and installations during reporting period and value of all kinds of transport and communication facilities, agriculture, trade, catering, communal, educational, cultural, health and other objects, as well as value of machinery and all modes of transport facilities introduced into use, included or not in budget, and other expenditures.*

***Producing capacities-**information on capacities, dwelling and socio-cultural objects introduced into use during the reporting period is given in corresponding*

*reports of customer and contractor based on act confirmed by the State Commission.*

***Construction of manufacturing entity** includes volume of investments directed to construction of industrial, agricultural, and other related objects.*

***Construction of service objects** includes volume of investments directed to construction of objects related with trade, transport, information and communication, rest, storehouse, and other branches.*

***Foreign investments directed to fixed capital** include investments directed by foreign investors to new constructions, reconstruction and development, activities, purchasing of machinery and equipments. This part also includes foreign credits, grants used in construction works and investments used at the expense of humanitarian aid.*

***Volume of construction works carried out by owner-contractor agreements** includes value of all kinds of constructions and services implemented by construction companies based on contracts concluded between sponsoring agencies and construction enterprises. These works include cost of building and assembly jobs (new construction, reconstruction, etc), capital and current repairs and other works and services.*

***Total floor space of the residential dwellings** is the sum of the area of each floor of the building measured to the outer surface of the outer walls including the area of lobbies, cellars, elevator shafts and in multi-dwelling buildings all the common spaces (balconies are excluded).*

***Residential dwellings** consists of one or several rooms and subsidiary areas (kitchen, bathroom, balcony) in the apartment building that has direct entry to areas in common use.*

# NƏQLİYYAT

**Nəqliyyat sektorunda yük daşınması** – mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq əsas fəaliyyəti nəqliyyat işi olan hüquqi şəxslər-müəssisələr və hüquqi şəxs yaratmadan avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən kommersiya məqsədilə daşınmış yüklərin həcmidir.

**Qeyri-nəqliyyat sektorunda yük daşınması** – nəqliyyat sektoru istisna olmaqla iqtisadiyyatın digər sahələrində (sənaye, kənd təsərrüfatı və s.) fəaliyyət göstərən müəssisələrin nəqliyyat vasitələri ilə qazanc əldə etmədən öz daxili ehtiyacları üçün daşıdıqları yüklərin həcmidir. Kənd təsərrüfatında, ev təsərrüfatlarının avtomobil nəqliyyatı vasitələri ilə daşınmaları barədə məlumatlar qeyri-nəqliyyat sektoru üzrə məlumatlara daxil olunmamışdır. Növbəti illərdə bu sahədə tədqiqat aparılmaqla əldə olunmuş məlumatlar məcmuədə əksini tapacaq və eyni zamanda əvvəlki illərin məlumatları da təshih olunacaqdır.

**Nəqliyyat sektorunda yük dövriyyəsi göstəricisi** – nəqliyyat müəssisələri və hüquqi şəxs yaratmadan avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslərin-fərdi sahibkarların nəqliyyat vasitələrinin daşıdığı yükün həcmini daşınmış məsafə ilə əlaqədə ton-kilometrlərlə ifadə edir. Bu göstərici hər bir reys üzrə daşınmış yükün tonla miqdarının daşınma məsafəsinə-kilometrlərə vurulması hasillərinin cəmi kimi hesablanr.

**Qeyri-nəqliyyat sektorunda yük dövriyyəsi** – qeyri-nəqliyyat müəssisələrinin nəqliyyat vasitələri tərəfindən daşınmış yüklərin tonla miqdarının daşınma məsafəsinə vurulması yolu ilə müəyyən edilir.

**Nəqliyyat sektorunda sərnişin daşınması göstəricisi** – ölkə ərazisində və beynəlxalq marşurutlarda bütün növlərdən olan qatarlar, gəmilər,avtobus, taksi, təyyarə və vertolyotlar, habelə tramvay, metro və troleybuslar vasitəsi ilə kommersiya əsasında daşınmış sərnişinlərin sayını əhatə edir.

Sərnişin daşınmasının həcminə, gediş haqqını almaq üçün tətbiq edilən tarif dərəcəsindən asılı olmayaraq, ölkə daxilində və beynəlxalq xətlərdə daşınmış sərnişinlərin hamısı (pulsuz getmək hüququ olan sərnişinləri də daxil etmək şərti ilə) daxildir.

**Nəqliyyat sektorunda sərnişin dövriyyəsi –** sərnişindaşıma nəqliyyatının işinin həcmini məsafə ilə xarakterizə edir və sərnişin-kilometrlə ölçülür. Sərnişin dövriyyəsi daşınmış sərnişinlərin sayını onların daşınma məsafəsinə vurmaq yolu ilə hesablanır.

**Yol xətlərinin uzunluğu** – Yol xətti dedikdə dəmir yolu, avtomobil, dəniz və sair yollar, habelə elektrik nəqliyyatı üçün xüsusi uyğunlaşdırılmış və təchiz edilmiş, üzərində müvafiq nəqliyyat vasitəsinin hərəkət etməsi üçün istifadə edilən yollar nəzərdə tutulur. Yol xəttinin uzunluğu nəqliyyat müəssisəsinin yol üçün texniki pasportlarının məlumatlarına əsasən müəyyən edilir. Nəqliyyat müəssisələrinin

balansında olan əlaqə yolları nəqliyyat sektorunun (ümumi istifadədə olan) yollarına aiddir. Qeyri-nəqliyyat müəssisələrinə məxsus dəmir və avtomobil yolları qeyri-nəqliyyat sektorunun (ümumi istifadədə olmayan) yollarına aid edilir. Ümumi istifadədə olan avtomobil yollarının uzunluğuna şəhərlərin küçələri və sənaye, tikinti, kənd təsərrüfatı və sair təşkilatlara məxsus olan yollardan başqa, ölkənin bütün yol şəbəkəsi daxil edilir. Təhkim edilmiş və fərdi yollara texnoloji, xüsusi və fərdi ehtiyaclar üçün müəssisə, birlik və təşkilatların, kənd (fermer) təsərrüfatının, işgüzar adamların, birliklərin və sair təşkilatların istifadəsinə verilmiş yollar aiddir. Avtomobil yolları örtük şəraitinə görə bərk örtüklü və torpaq yollarına bölünür və əhəmiyyətinə görə dövlət əhəmiyyətli və yerli əhəmiyyətli yollar hesab olunur.

## *TRANSPORT*

***Goods transportation in transport sector** – is the volume of goods transported for commercial purpose by enterprises regardless their type of ownership and organization-legal form having transport as a main kind of activity, and natural persons having activity in road transport.*

***Goods transportation in non-transport sector** – is the volume of loads conveyed for own needs without having profit from transportation by enterprises rather than transport sector, having activity in other areas (industry, agriculture, etc.) of economy. Transportation by road transport means of national economy in agriculture are not included to non-transport sector information. After obtain information from examination in this area and corresponding information of previous years would correct in collection in next year.*

***Freight turnover in transport sector** – is calculated with ton-km according factor to conveyance of the load (ton) by every trip made by transport means of transport enterprises and natural person-individual owner before creating legal person having activity in transport sector. This factor is calculated as the sum of result of multiplication of load quantity (ton) to freight distance (km) by every trip.*

***Freight turnover in non-transport sector** – is defined by multiplication of load quantity (ton) to freight distance made by transport means of non-transport enterprises.*

***Passenger transportation** – in transport sector consists of the number of passengers transported on commercial base by all types of inland and international route means, by railway carriages and trains, ship, bus, taxi, plane and helicopters, also trains, metro and trolleybuses.*

*All passengers (including those who have license for free going) transported by inland and international lines are included to the quantity of passenger transportation regardless the level of tariff applied for trip payments.*

***Length of ways*** *– Ways are the railways, motor, sea and other ways, also the ways specially prepared for electric transport where corresponding transport means work. The length of roadways is defined according to technical passport informations of transport enterprises used for ways. Communication ways on the balance of transport enterprises belongs to ways (on the general use) of transport sector. Railway, motorway and other ways belonging to non transport enterprises belong to the ways (not on general use) of non transport sector. All the road net of the country except city streets and roads belonging to industry, construction, agriculture and other organizations is included to the length of motorways on general use and individual roods are the roads given to enterprises, organizations, unions, official people of agricultural and other organizations for use for technological, special and individual needs. There are firm covered and sand roads according to cover conditions, state important and indigenous important roads according to the importance of the road.*

## İNFORMASİYA VƏ RABİTƏ

**İnformasiya və rabitə xidmətlərindən əldə edilən gəlir** – informasiya və rabitə müəssisəsinin əsas fəaliyyətindən əldə olunan gəlirlərin ümumi həcmidir. Bu göstərici əhaliyə, idarə, müəssisə və təşkilatlara göstərilmiş xidmətlər müqabilində müəssisənin əldə etdiyi pul vəsaitinin cəmini xarakterizə edir. Milli hesablar sisteminin tələblərinə uyğun olaraq digər iqtisadi sahələrdə olduğu kimi, rabitə müəssisələri üzrə də “rabitə xidmətlərindən əldə olunmuş gəlir” göstəricisi formalaşdırılarkən ümumi gəlirin həcmi mal və xidmətlərin satışından əldə edilən vəsaitin müəssisələrin (idarənin, təşkilatın və s.) hesablaşma hesabına daxil olmasından asılı olmayaraq onun yaranması anındakı vəziyyətinə uyğun müəyyən edilir. Yəni, bu göstərici hesablanarkən əldə olunan faktiki gəlirin məbləği deyil, hesabat dövründə göstərilən xidmətlərə görə hesablanmış məbləğ əsas götürülür.

**Ümumi istifadədə olan telefon aparatlarının sayına** – rabitə müəssisələrinin istifadəsində olan telefon aparatları və başqa idarə və təşkilatlara məxsus olan stansiyalara birləşdirilən və ümumi istifadədə olan telefon şəbəkəsinə çıxışı olan telefon aparatları daxil edilir. Telefon aparatlarının sayına mənzillərdə qoyuluş əsas və əlavə aparatların, aparat avtomatların, idarə, müəssisə və təşkilatlarda qoyulmuş və ümumi istifadədə olan telefon şəbəkəsi ilə əlaqə yaradılması mümkün olan aparatların hamısı (birbaşa, parallel, kollektiv istifadə edilən və sair) daxil edilir. Telefon aparatlarının ümumi sayından evlərdə (mənzillərdə və xüsusi evlərdə) qoyulmuş telefon aparatlarinin sayı ayrılır.

**ATS (avtomat telefon stansiyaları) üzrə ümumi tutum** – telefon rabitəsi fəaliyyəti göstərən müəssisələrin telefon stansiyalarında quraşdırılmış bütün nömrələrin ümumi sayını xarakterizə edir.

**İstifadə olunan tutum** – faktiki istifadə olunan bütün telefon stansiyalarının ümumi tutumunu göstərir. Avtomat telefon stansiyalarının ümumi tutumuna koordinat və elektron sistemli telefon stansiyalarının ümumi tutumu aid olunur.

## *INFORMATION AND COMMUNICATION*

***Income from the information and communication services****-is the general quantity of profits obtained from the main activity of communication enterprises. This factor characterizes the sum of money means obtained in return of services of communication enterprises to population, offices, enterprises and organizations. According to requirements of SNA, forming of an "Profit obtained of communication services" indicator on communication field as in other economical fields, the total profit volume not depending on sums obtained from selling of goods and services and in further transferred onto enterprises (body, organization, etc.) accounts, is defined in compliance with its initial position.*

***The number of telephone sets in general use*** *– include telephone sets in use of communication enterprises and telephone sets having access to telephone net in general use and connected to the stations belonging to other office and organizations. All telephone sets (direct, parallel, used collectively and etc.) having possibility to communicate with telephone net on general use and used in office, enterprise and organizations, also telephone sets, set machines being put mainly and additionally to households are included to the number of telephone sets. The number of telephone sets put in households (flat and special house) are seperated from the general number of telephone sets.*

***General capacity by ATS (automatic telephone systems)*** *- characterizes the total quantity of all numbers fixed in telephone stations of the enterprises having activity of telephone communication.*

# İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARI

**Kompüterlərə** fərdi stolüstü, səyyar (daşınan) portativ kompüterlər (laptop) və əl kompüterləri daxildir.

**Kompüter istifadəçiləri** yerindən asılı olmayaraq son 12 ay ərzində kompüterdən istifadə etmişlərdir.

**İnternet istifadəçiləri** internet şəbəkəsinə qoşulmuş, internetdən istifadə etmiş şəxslər hesab olunur. İstifadəçilərin sayını əhalinin ümumi sayına bölmək və 100-ə vurmaqla hər 100 nəfərə düşən internet istifadəçilərinin sayı tapılır. İnternet istifadəçisi tələbə və ya şagird olduqda, o, intenetdən "təhsil müəssisəsində" (təhsil aldığı yerdə) istifadə etmiş, müəllim olduqda "iş yerində" internetdən istifadə etmiş şəxs kimi nəzərə alınmışdır.

**İKT sektoru** informasiya və məlumatların elektron formada saxlanılması, ötürülməsi və göstərilməsini əhatə edən istehsal və xidmət sahələrindən ibarətdir.

## *INFORMATION AND COMMUNICATION TECHNOLOGIES*

***Computers*** *refer the number of computers installed in a country. The statistic includes PCs, laptops, notebooks etc, but excludes terminals connected to mainframe and mini-computers that are primarily intended for shared use, and devices such as smart-phones and personal digital assistants (PDAs) that have only some, but not all, of the components of a PC (e.g. they may lack a full-sized keyboard, a large screen, an Internet connection, drives etc.). Computer users refer to persons who have used computer within 12 months irrespective of their place. Computers per 100 inhabitants is obtained by dividing the estimated number of computers in use by the population and multiplying by 100.*

***Internet users*** *are people who had connection to internet and used internet. Internet users per 100 inhabitants is obtained by dividing the number of Internet users by the population and multiplying by 100.*

***ICT sector*** *consists of production and service fields that cover storing, transmitting and reading the information and data in the electronic format.*

# XARİCİ TİCARƏT

**İxrac** - ölkədə istehsal olunmuş və ya başqa ölkələrdən gətirilmiş malların (təkrar ixrac) ölkə sərhədlərindən kənara göndərilməsidir.

Ölkənin öz istehsalı sayılan mallara, həmçinin ölkəyə gətirilən və təkrar emal olunaraq əsas kəmiyyət və keyfiyyət göstəricilərini dəyişən xarici mənşəli mallar da daxil edilir.

İxracın dəyərinin qiymətləndirilməsi FOB qiymətləri və ya mal ixrac edən ölkənin franko-sərhəd qiymətləri üzrə aparılır, yəni malın qiymətinə onun dəyəri, malı ixrac edən ölkənin quru sərhədlərinə və ya göndərmə limanına çatdırılması və gəmi bortuna yüklənməsi xərcləri daxil edilir.

**İdxal** - ölkədə istehlak edilmək üçün, həmçinin təkrar ixrac etmək üçün ölkə sərhədlərindən, kənardan mal gətirilməsidir.

İdxalın dəyərinin qiymətləndirilməsi SIF qiymətləri və ya mal idxal edən ölkənin franko-sərhəd qiymətləri üzrə aparılır, yəni malın qiymətinə onun dəyəri, malı idxal edən ölkənin sərhədlərinə qədər daşınması və sığorta xərcləri daxil edilir.

**Xarici ticarət dövriyyəsi** - idxal və ixracın dəyərinin cəmidir.

**Xarici ticarət saldosu** - ixrac ilə idxalın fərqidir. Əgər ixrac idxaldan çoxdursa müsbət saldo, idxal ixracdan çoxdursa mənfi saldo alınır.

Humanitar yardım, əvəzsiz kömək və hədiyyələr haqqında göstəricilər 1999-cu ildən idxal və ixrac əməliyyatlarına daxil edilmişdir.

# *FOREIGN TRADE*

***Export*** *is the outbound movement across the national boundaries of goods produced in the country or of goods imported from other countries (re-exports).*

*Goods considered as manufactured in the country are also goods of foreign origin which are imported and reprocessed, changing their quantity and quality indicators.*

*The value of export is calculated in FOB (Free On Board) prices or in franco-border prices of the country, i.e. the cost of the goods include the expenditures for dispatching the goods to the land borders or port of departure.*

***Import*** *is the inbound movement across the national boundaries of goods for consumption, processing or re-export abroad.*

*Estimation of the volume of import is carried at CIF (Cost Insurance Freight) prices or in franco-border prices, i.e. the cost of the goods includes its value, transportation to the borders and insurance expenses.*

***External trade turnover*** *is the total of the value of export and import.*

***External trade balance*** *is the difference between the values of import and export. If the export is worth more than the import there is a positive balance, and if the import is worth more than the export there is a negative balance.*

*An indicator regarding humanitarian aid, free assistance and presents has been included in import/export estimates since 1999.*

# İXTİSARLAR
## *ABBREVIATIONS*

| Azərbaycan dilində | | *In English* | |
|---|---|---|---|
| man. | - manat | *man.* | *-manats* |
| min | - min | *thsd.* | *-thousand* |
| mlyn. | - milyon | *mln.* | *-million* |
| mlrd. | - milyard | *bill.* | *-billion* |
| m. | - metr | *m.* | *-meter* |
| $m^2$ | - kvadrat metr | $m^2$ | *-square metre* |
| $m^3$ | - kub metr | $m^3$ | *-cubic metre* |
| km. | - kilometr | *km.* | *-kilometre* |
| $km^2$ | - kvadrat kilometr | $km^2$ | *-square kilometre* |
| kq. | - kiloqram | *kg.* | *-kilogram* |
| t. | - ton | *t.* | *-ton* |
| əd. | - ədəd | *pcs* | *-piece units* |
| l. | - litr | *l.* | *-litre* |
| dkl. | - dekalitr | *dkl.* | *-decalitre* |
| ha | - hektar | *ha* | *-hectare* |
| t-km | - ton-kilometr | *tons/km* | *-tonnes kilometres* |
| nüs. | - nüsxə | *c.* | *-copy* |
| mm. | - millimetr | *mm.* | *-millimeter* |
| kvt.s. | - kilovatt-saat | *KWh* | *-kilowatt hours* |

**Məcmuənin buraxılışında iştirak edənlər:**
***Persons participated in preparation of the yearbook:***

| | | **Telefon** *Phone* |
|---|---|---|
| Energetika və ətraf mühit statistikası<br>*Energy and environment statistics* | R.Lazımova<br>*R.Lazımova* | 538-63-03 |
| Əhali statistikası<br>*Population statistics* | R.Allahverdiyev<br>*R.Allahverdiyev* | 538-51-43 |
| Əmək statistikası<br>*Labour statistics* | N.Xuduzadə<br>*N.Khuduzade* | 538-61-21 |
| Həyat keyfiyyətinin statistikası<br>*Quality of life statistics* | Y.Paşa<br>*Y.Pasha* | 538-52-80 |
| Xidmət statistikası<br>*Service statistics* | G.Quliyev<br>*G.Guliyev* | 538-93-98 |
| Kənd təsərrüfatı statistikası<br>*Agriculture statistics* | G.Məmmədov<br>*G.Mammadov* | 538-73-57 |
| Qiymət statistikası<br>*Price statistics* | R.Vəliyev<br>*R.Veliyev* | 538-52-72 |
| Milli hesablar və makroiqtisadi göstəricilər statistikası<br>*National accounts and macro-economic indicators statistics* | N.Süleymanov<br>*N.Suleymanov* | 538-74-50 |
| Sənaye və tikinti statistikası<br>*Industry and construction statistics* | E.Qasımzadə<br>*E.Gasimzade* | 539-87-17 |
| Sosial statistika<br>*Social statistics* | E.Hacı<br>*E.Haji* | 538-90-12 |
| Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma<br>*Coordination of statistical works and strategic planning* | Q.Əliyev<br>*G.Aliyev* | 539-81-04 |
| Ticarət statistikası<br>*Trade statistics* | A.İbrahimova<br>*A.Ibrahimova* | 538-77-25 |

“Azərbaycanın Statistik Göstəriciləri 2019” / Statistik məcmuə/ Bakı, 2019
*“Statistical Yearbook of Azerbaijan 2019” / Statistical publication /Baku, 2019*

| | |
|---|---|
| Məcmuənin hazırlanmasına ümumi rəhbərlik: | Tahir Budaqov |
| Buraxılış üzrə məsul: | İnformasiya və ictimaiyyətlə əlaqələr şöbəsi |
| Şöbə müdiri | Rafael Suleymanov |
| İcraçılar: | Leyla Kərimova<br>Hicran Mahmudova<br>Nigar Mirzəyeva<br>Azadə Fərzəliyeva<br>Ramin Məmmədxanov<br>Səbinə Əmirova |
| tel: | +(0099412) 538-93-76 |

| | |
|---|---|
| *General leadership for preparation of the publication:* | *Tahir Budagov* |
| *Responsible for issue:* | *Information and Public Relations Department* |
| *Head of Department:* | *Rafael Suleymanov* |
| *Executors:* | *Leyla Kerimova*<br>*Hijran Mahmudova*<br>*Nigar Mirzayeva*<br>*Azada Farzaliyeva*<br>*Ramin Mammadkhanov*<br>*Sabina Amirova* |
| *tel:* | +(0099412) 538-93-76 |

QEYDLƏR ÜÇÜN
FOR NOTES

QEYDLƏR ÜÇÜN
FOR NOTES

QEYDLƏR ÜÇÜN
FOR NOTES

QEYDLƏR ÜÇÜN
FOR NOTES

QEYDLƏR ÜÇÜN
FOR NOTES

Format 70x100 1/16
Həcmi 49,5 ç.v.
Tiraj 380 nüsxə

**9 №-li kiçik müəssisə**